**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “Azərbaycan Respublikasında büdcə gəlirlərinin qeyri-neft sektorunun inkişafına təsirinin qiymətləndirilməsi” mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

**Əliyev Bəybala Vüqar**

**BAKI – 2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos.Əhmədov Fariz Saleh**

**____________________imza**

**“___” ____________ 20__-ci il**

**“Azərbaycan Respublikasında büdcə gəlirlərinin qeyri-neft sektorunun inkişafına təsirinin qiymətləndirilməsi”**

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı: 060405 Sənayenin təşkili ve idarə olunması**

**İxtisaslaşma: Müəssisə iqtisadiyatı**

**Qrup: 500**

**Magistrant:**
**Əliyev Bəybala Vüqar**

_________________

**Elmi rəhbər:**
**i.ü.f.d.,dos.Ağayev Səyyad İsaq**

___________________

**Proqram rəhbəri**
**i.ü.f.d., b/m Hümbətova Suqra İnqilab**

___________________

**Kafedra müdiri**
**i.e.d., prof Kəlbiyev Yaşar Atakişi**

___________________

**BAKI – 2019**

**Evaluation of the impact of budget revenues on the development of the non-oil sector in the Republic of Azerbaijan**

**Summary**

**The relevance of research: Oil is functioning as one of the main areas of the economy of each country. The state is directly interested in the development of the non-oil sector. There are several aspects here. These are:**
**- Oil is an unstable source**
**- Changes in world oil market prices at certain times**
**- Elimination of dependence on oil**
**- Orientation of oil dependence on narrow field development**
**Object and subject of the research: The object of the research is the combination of the budgetary incomes of the non-oil sector of Azerbaijan, the combination of the medico-and methodological approaches to the assessment of the impact of revenue on production and budget revenues. The subject of the research is the state's economic development and sustainable economic development.**
**Used research metods: Dissertation was analyzed by various methods, including analysis, synthesis, and also by induction and deduction methods**
**Research information base: The research work database is comprised of current practice of world countries, foreign literature, statistical information, relevant laws of the Republic of Azerbaijan, decrees and orders of the President, legal-normative documents, classics of economics science and works of leading economist scientists.**
**Research restrictious: Theoretical-methodological shortcomings that are hindering the research, lack of sufficient information base, and so on.**
**Research results: The process of improving the non-oil sector's development environment is one of the factors that impact budget investment policies and investment in the oil sector.**
**Key words: oil economy and non-oil economy, budget system, economy, economic development.**

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **DİF** | Dünya İqtisadi Formu |
| **ƏDV** | Əlavə Dəyər Vergisi |
| **ÜDM** | Ümumi Daxili Məhsul |

## MÜNDƏRİCAT

**GİRİŞ** .................................................. **7**

**I Fəsil DÖVLƏT BÜDCƏSİNİN GƏLİRLƏRİ VƏ ONUN NƏZƏRİ METODOLOJİ ƏSASLARI** .................................................. **11**

1.1. Azərbaycanda büdcə gəlirlərinin quruluşu və onların mənbələri ............... 11

1.2. Dövlət gəlirləri iqtisadi kateqoriyanın əsası kimi .................................. 20

**II Fəsil AZƏRBAYCANDA QEYRİ-NEFT SEKTORUNUN DİNAMİK İNKİŞAFININ QİYMƏTLƏNDİRİLMƏSİ** .................................................. **27**

2.1. Azərbaycan iqtisadiyyatının mövcud vəziyyətinin təhlil edilməsi ............ 27

2.2. Qeyri-neft sektorunun inkişaf perspektivlərinin dinamikası .................... 31

2.3. Qeyri-neft sektorunun inkişafında investisiyaların əsas yeri və mövqeyi .... 36

**III Fəsil BÜDCƏ GƏLİRLƏRİ QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAF PRİORİTETLƏRİ KİMİ** .................................................. **48**

3.1. Qeyri-neft sektorunun inkişaf dinamikasında rəqabətqabiliyyətlilik amili .................................................. 48

3.2. Dövlət tərəfindən stimullaşdırılan büdcə gəlirlərinin qeyri-neft sektorunun inkişafında rolu .................................................. 55

3.3. Qeyri-neft sektorunun inkişafına büdcə gəlirlərinin yönəldilməsinin təsiri . 59

**NƏTİCƏ VƏ TƏKLİFLƏR** .................................................. **64**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT** .................................................. **68**

Cədvəllərin siyahısı .................................................. 71

Şəkillərin siyahısı .................................................. 71

# GİRİŞ

**Mövzunun aktuallığı.** Azərbaycanın müstəqilliyin ilk zamanlarında iqtisadi və sosial sferalar arasındakı bütün diqqətlər neft sektoruna istiqamətlənmişdir. Ölkə iqtisadiyyatında neft sektoru digərlərinə nisbətdə müqayisə olunsa daha üstün və perespektivli səviyyədə inkişaf etməsinə zəruri şərait yaradılmışdır. Bununlada iqtisadiyyatda neftin rolu artaraq, bu sektora investisiya qoyuluşlarının həcmi olduqca yüksəlmişdir.

Ölkə iqtisadiyyatında neft sektorunun müəyyən səviyyəyə çatıb yüksəlməsiylə, iqtisadiyyatın digər sahələrinin də yəni, qeyri-neft sektorununda inkişafına birbaşa olaraq təsir göstərmişdir. Dövlətin qeyri-neft sektorunun inkişafına təsir etməyi və bu sektorunun inkişafının stimullaşdırılması daha da yüksəldilmişdir. Qeyri-neft sektorunun inkişafında dövlət birbaşa olaraq maraqlıdır. Burada bir neçə aspekt mövcuddur. Bunlar aşağıdakılardır:

- Neftin bərpa olunmayan resurs olması
- Müəyyən zaman kəsiklərində dünya neft bazarında qiymətlərindəki dəyişikliklərin olması
- Neftdən asılılığın aradan qaldırılmasının təmin olunması
- Neftdən asılığının iqtisadiyyatın dar sahə üzrə inkişafına yönəldilməsi

Müasir elmi ədəbiyyatlarda iqtisadi təhlilin ümumnəzəri va empirik istiqamətlərində harmonik birləşmə mövcud deyildir. Bundan başqa, mövcud olan kəmiyyət qiymətləndirmələri bir çox hallarda bir-biri ilə ziddiyyət təşkil edir ki, bu da onların ümumi bir metodiki məxrəcə gətirilməsi vəzifəsini qarşıya qoyur. Qeyd olunan bu fakt büdcə gəlirləri amilinin təhlilinin instrumental vasitələrinin sonrakı təkmilləşdirilməsi məsələsinin aktuallığını şərtləndirir.

Qeyd olunan məqsədə nail olmaq üçün tədqiqatda aşağıdakı vəzifələr müəyyən edilmişdir:

Büdcə sisteminin əsas makroiqtisadi göstəricilərinin müəyyən edilməsi əsas kapital yığımına, əmlak bazarının çeviklik dərəcəsinə, xarici ticarət tariflərinə təsərrüfat subyektlarinin qiymət siyasatinə, iqtisadi artıma və s. təsirinin qiymətləndirilməsinin müəyyən edilməsi

-Mövcud ölkə və xarici metodikaların təhlil edilməsi və kifayət qədər işlənməmiş məsələlərin müəyyən edilməsi

-İqtisadi artım, həm də büdcə gəlirləri nöqteyi nəzərindən fiskal ağırlığın maksimal kəmiyyətlərinin empirik qiymətlərinin alınması;

-İstehsal həcminin va büdcə gəlirlərinin məbləğinin fıskal yükün kəmiyyətinin dəyişməsinə qarşı reaksiyasımn xarakterini müəyyən edilməsi-büdcə gəlirlərinin sinxronluluğunu müəyyən etmək məqsədilə istehsal və büdcə kriteriyalarına münasibətda müəyyən edilən fıskal ağırlığın optimal kəmiyyatləri zonasınm aşkar edilmasi Azarbaycanda iqtisadi artımın ortamüddətli strategiyasının formalaşdırılmasında fıskal amilin rolunun qiymətləndirilməsinin müəyyən edilməsi

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti olaraq Azərbaycanın qeyri-neft sektoruna büdcə gəlirlərinin istiqamətləndirilməsinin prioritetləri, milli iqtisadiyyatm dinamikasına təsiri konstekstində dövlətin büdcə sistemi, gəlirlərin istehsalın va dövlətin büdcə gəlirlərinin dinamikasma təsirinin qiymətləndirilməsi üzrə medoloji va metodiki yanaşmaların məcmusu təşkil edir.

Tədqiqatın predmetində müasir dövrdə Azərbaycanın qeyri-neft sektorunun inkişaf etdirilməsi uğrunda dövlət tərəfdən həyata keçirilən tədbirlər və həmin tədbirlərin həyata keçirilməsi ilə bağlı iqtisadi münasibətlər, davamlı və dayanıqlı iqtisadi inkişaf dayanır.

Azərbaycan və xarici ölkə iqtisadçılarının büdcə sahəsində tədqiqat işlərinin təhlili göstərir ki, hazırda istehsalın dinamikası nöqteyi nəzərindən büdcə siyasətində vergilərin rolunun tədqiqinda müəyyən birxətlilik müşahidə olunur:  ya müvafiq verifikasiya aparmadan iqtisadi nəzəriyyə tərəfə aksent edilir, yaxud da empirik məlumatlar va mövcud nəzəri-konseptual nəticələr nəzərə alınmadan onların emalına üstünlük verilir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Burada əsas məqsəd qeyri-neft sektorunun inkişafı qarşısında duran bütün problemlərin təhlil edilməsi və bu sahənin büdcə gəlitrlərinin yönləndirilməsi üzrə qeyri-neft sektorunun inkişaf istiqamətlərinə dair

elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyyələr işləyib hazırlamaqdan ibarətdir.

Dissertasiya işində qarşıya qoyulan məqsədlərə iqtisadiyyatın müasir strukturunun qiymətləndirilməsi, həmçinin onun inkişaf amillərinin müəyyən edilməsi, qeyri-neft sektorunun inkişafında ortaya çıxa biləcək problemlərin təhlilinin aparılması, bu zaman yarana biləcək öhdəliklərin yerinə yetirilməsi, onların həlli yollarının işlənib hazırlanması və inkişafı üçün müəyyən istiqamətlər işlənib hazırlanmışdır.

**Tədqiqat metodları.** Dissertasiya işi müxtəlif metodlar vasitəsi ilə yazılmışdır. Bura, bir-birini tamamlayan analiz, sintez, induksiya və deduksiya metodları nəzərdən keçirilmişdir. Bu metodların təhlil edilməsiylə işin aktuallığına nail olunmşdur.

**Tədqiqatın informasiya bazası.** Bu tədqiqatın informasiya bazasını Azərbaycan Respublikasının müvafiq qanunları, Dövlət prezidentinin fərmanları, Nazirlər kabinetinin qərarları və sərəncamları, hüquqi-normativ sənədlər, iqtisadiyyat elminin klassikləri və aparıcı iqtisadçılarının əsərləri təşkil edir.

**Tədqiqatın məhdudiyyətləri.** Hər bir dissertasiya işində olduğu kimi müxtəlif məhdudiyyətlər mövcuddur. Bu məhdudiyyətlər təhlilin iş üzrə daha dərindən aparılmasına gətirib çıxarır. Bu dissertasiya işinin məhdudiyyətləri iqtisadiyyatın diversifikasiyalığını nəzərə almadan, daha dar sfera olaraq qeyri-neft sektorunu əhatə etməyindədir. Bu səbəblədə qeyri-neft sektorunun hər tərəfli təhlili aparılaraq onun təkmilləşdirilıməsi modelinin qurulmasına səbəb olmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın əvvəlində büdcə siyasətin düzgün aparılması ilə büdcə gəlirlərinin qeyri-neft sektorunun inkişafına yönəldilməsinin məzmunu göstərilmiş, daha sonra büdcə siyasətin necə həyata keçirildiyi, əsasən büdcə gəlirləri siyasəti həyata keçirilirkən hansı mexanizmdən istifadə edildiyi nəzərdən keçirilmişdir. Büdcə siyasətdə dəyişiklik etməklə məcmu tələbin və məcmu təklifin necə idarə olunduğunu göstərməklə büdcə siyasətini daha geniş şəkildə izah olunmuş və iqtisadiyyat müdaxilə aləti kimi öyrənilmişdir. Büdcə siyasətinin növləri və tipləri fərqləndirilərək makroiqtisadi faktorlara təsir

dərəcələri qiymətləndirilmişdir. Tədqiqatın davamında vergilər, dövlət xərcləri və gəlirləri digər  büdcə alətlərin rolu açıqlanmış və izahı verilmişdir.

Tədqiqatın yekununda isə makroiqtisadi tarazlığın təmin edilməsində büdcə yəni büdcə-vergi gəlir siyasətinin Azərbaycanda necə həyata keçirildiyini müzakirə edilərək, mövcud durumu cədvəllər və diaqramlar şəklində göstərilmiş, təhlil aparılmış və proritet istiqamətlər göstərilərək büdcə siyasətin təkmilləşdirmə tədbirləri üzrə təkliflər verilmişdir.

Tədqiqat işinin elmi yeniliyi aşağıdakıları əhatə edir:

Azərbaycanda qeyri-neft sektorunun mövcud sahə strukturunun formalaşdırılmasına və davamlı inkişıfını müəyyənləşdirən amillərin tapılması

Qeyri-neft sektorunun inkişaf etdirilməsi üzrə ölkədəki dayanıqlı iqtisadi inkişafın zəruri amillərin şərtləndirilməsi

Dövlətin qeyri-neft sektoruna dövlət gəlirlərinin yönəldilməsi ilə tənzimləmə mexanizminin tərtib edilməsi

Qeyri-neft sektoruna büdcə gəlirlərinin təyinatının optimallaşdırılmasının təmin edilməsi

Büdcə gəlirlərinin qeyri-neft sektorunundakı mövqeyinin gecləndirilməsi və xüsusiyyətlərin müəyyən edilməsi

Ölkədə qeyri-neft sektorunun inkişaf dinamikası təhlil edilməsi

Qeyri-neft sektoru üzrə mövcud problemlərin həlli üzrə təkliflərin verilməsi

Qeyri-neft sektorunun inkişaf etdirilməsinin prioritet istiqamətləri müəyyən edilməsi

**Dissertasiya işinin həcmi və quruluşu.** Bu iş giriş, üç fəsil, nəticə, təkliflər və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

# I Fəsil DÖVLƏT BÜDCƏSİNİN GƏLİRLƏRİ VƏ ONUN NƏZƏRİ METODOLOJİ ƏSASLARI

## 1.1. Azərbaycanda büdcə gəlirlərinin quruluşu və onların mənbələri

Dövlət gəlirləri müxtəlif formalarda çıxış edən ictimai bir məhsul kim formalaşmışdır. Dövlət gəlirlərinu formalaşdıran əsas anlayışları pul münasibətlərini təşkil edir. Dövlət gəlirləri bütövlükdə dövlətin və həmçinin onun bütün müəssisələrinin sərəncamlarında maliyyə resurslarının formalaşması ilə meydana çıxan bir maliyyə münasibətidir. Dövlət sərəncamındakı maliyyə resursları da öz növbəsində bir neçə yerə ayrılır. Bunlar aşağıdakılardlır:

mərkəzləşdirilmiş

qeyri-mərkəzləşdirilmiş

Mərkəzləşdirilmiş dövlət gəlirlərinə dövlət müəssisələrinin, qeyrimərkəzləşdirilmiş vəsaitlərə isə təşkilatlarının sərəncamındakı maliyyə resursları aid edilir.

Mərkəzləşdirilmiş dövlət gəlirləri özündə vergi daxilolmalarını, müəyyən xarici iqtisadi fəaliyyətdən daxilolmaları, həmçinin vətəndaşlar tərəfindən olunan ödəmələr vasitəsi ilə formalaşır.

Qeyri-mərkəzləşdirilmiş vəsaitlərinin özlərini isə müəssisələrdəki pul gəlirləri və özlərinin yığımları hesabına yaradılmış olur.

Müasir dövrün tələbi dövlət gəlirlərinin əsas vəzifəsini təmin edərək, müxtəlif fəaliyyətlərinin səmərəliliyini təmin etmək və dövlət gəlirlərinin müəyyən qeyri-neft sektorunun səmərəliliyinə təsirini optimallşadırmaqdan ibarətdir.

Dövlətin gəlirləri dövlət fəaliyyətinin maliyyələşdirilməsi üçün zəruri olan maliyyə əsaslarının yaranması məqsədilə paylaşdırılma və yenidən paylaşdırılma prosesinin dövlət mülkiyyətində və istifadəsində dövr edən milli gəlirin bir hissəsidir.

Mövcud bazar iqtisadiyyatının formalaşması şəraitində dövlət büdcəsi gəlirlərinin araşdırılıb, təhlil edilməsi mühüm və qlobal proseslərdəndir. Dövlət gəlirlərinin yaranmasında büdcə gəlirləri bilavasitə yaxından iştirak edir. Qeyd

etmək lazımdır ki, büdcə gəlirləri daha dar məna kəsb etməklə, dövlət gəlirlərinin geniş tərkibinin müəyyən hissəsi şəklində çıxış edir.

Azərbaycan Respublikasının büdcə gəlirləri dedikdə Respublikanın, Naxçıvan Muxtar Respublikasının, həmçinin yerli özünü idarəetmə orqanları müvafiq qanunvericiliyə, həmçinin müəyyən olunan formada dövlət büdcəsinə, müvafiq olaraq NMR-nın büdcəsinə və yerli büdcələrə daxil olan vergilər, rüsumlar, digər daxilolma və ödənişlərdir. Bütün bunlar Azərbaycan Respublikasının Konstitusiyası və həmçinin, "Dövlət büdcəsi haqqında" qanun və digər qanunvericilik aktları ilə müəyyən edilmişdir. Büdcənin gəlirləri ümumulikdə, büdcə fondunun formalaşması prosesində iştirak edir. Bu proses mövcud hakimiyyət orqanının müəssisə, təşkilatlar və əhali arasında yaranan bütün iqtisadi münasibətləri özündə əks etdirmiş olur.

Dövlət müxtəlif əməliyyatları həyata keçirtmək üçün, müəyyən miqdarda vəsaitlər tələb olunur.  Yəni, başqa sözlə desək bütün xərcləri qarşılamaq üçün maliyyə vəsaiti lazımdır. Bu səbəbdəndə büdcə gəlirləri bütün maliyyə əməliyyatlarında əvəvzsiz rola malikdir. Büdcə gəlirləri bütün dövlətin maliyyə əməliyyatlarını yerinə yetirilməsi üçün mərkəzləşdirilmiş maliyyə vəsaitidir. Bu nöqteyi nəzərdəndə büdcə gəlirləri olduqca vacib sayılır. Büdcə gəlirləri pul vəsaitləri fondunun formalaşdırılmasında yaranan sosial-iqtisadi münasibətləri özündə birləşdirir. Həmçinin qeyd etmək lazımdır ki, müxtəlif səviyyəli dövlət strukturlarının fəaliyyətinin reallaşdırılmasına xidmət edir. Hər il büdcə gəlirləri proqnoz əsasında formalaşdırılır. Yəni, qarşıdan gələn hər növbəti il üçün nəzərdə tutularaq müəyyənləşdirilir. Dövlət tərəfindən ödənilən bütün xərclərinin tam formada maliyyələşdirmək üçün maliyyə vəsaitləri tələb olunur. Bundan belə bir nəticəyə gəlirik ki, hər dövr üçün büdcəyə müəyyən qədər gəlir daxil olacaq və lazımı miqdarda xərclər maliyyələşəcəkdir. Bura müxtəlif aspektli sahələr daxildir: iqtisadiyyatın diversifikasıyalı inkişafının təmin edilməsi, qeyri-neft sahəsinin inkişafının təmin edilməsi, sosial – iqtisadi sahələrin dayanıqlı inkişafının təmin eilməsi və sair sahələr daxildir. Bunların hər birinin maliyyələşməsində büdcə gəlirləri birbaşa iştirak edir.

Davamlı və dayanıqlı bazar iqtisadiyyatı şəraitində cəmiyyət üzvlərinin müxtəlif problemləri meydana gəlir. Bu problemlərin həllində bazar mexanizmləri özünü tam doğrulda bilmir. Cəmiyyət üzvlərinin bu kimi probləmlərin həlli məhz büdcə vəsaitləri əsasında öz həllini tapır.

İqtisadiyyatın davamlı və dayanıqlı inkişafını təmin etmək üçün əsas mənbə büdcə gəlirləri hesab olunur. İqtisadi inkişafın təmin edilməsi üzrə büdcə gəlirlərinin rolu əvəz edilməz sayılır. Çünki, iqtisadiyyatın bütün sahələri bərabər olaraq inkişaf etmir. Bir sahənin inkişafı, digərinə nisbətdə geri qalır. Bu nisbətlər arasındakı fərqi aradan götürmək üçün büdcə gəlirlərini həmin sahələrə yönləndirmək lazımdır. Bununlada, dövlət yardımları vasitəsi ilə az inkişaf etmiş sahələrin də inkişafına nail olmaq mümkündür.

Büdcə gəlirləri digər tərəfdən dövlət tərəfindən həyata keçirilən funksiyalarını yerinə yetirməsi üçün mərkəzləşdirilmiş maliyyə vəsaitləri kimi çıxış edir. Mövcud pul vəsaitləri fondlarının formalaşdırılması prosesindəki dövlət ilə hüquqi və fiziki şəxslər arasında yaranmış olan iqtisadi münasibətləri əks etdirmiş olur. Büdcə gəlirləri müxtəlif səviyyəli dövlət strukturlarının fəaliyyətinin həyata keçirməsinə xidmət etmiş olur.

Büdcə gəlirlərinin tərkibini formalaşdıran mənbələr müxtəlif olur. Buraya, pul vəsaitlərinin büdcəyə qeydə alınması, təsərrüfatçılıq sistemlərinin və metodlarından, həmçinin dövlətin əsas vəzifələrindən asılı olaraq müəyyən edilir.

Dövlət quruluşundan asılı olaraq büdcə gəlirləri özünü iki formada formalaşdırır. Bu özünü mərkəzi və yerli büdcə gəlirlərini formalaşdırır. Büdcə gəlirləri özünü daha dar mənada biruzə verir. Yəni, dövlət gəlirləri daha geniş əhatəli hesab olunur. Ümumilikdə, dövlət gəlirləri dedikdə bütövlükdə büdcələrin maliyyə vəsaitləri, büdcədənkənar fondlar və bütün dövlət sahələrinin vəsaitləri daxil edilir. Büdcə gəlirlərinin əsası təşkil edən mənbə milli gəlir hesab edilir. Milli gəlirin bölüşdürülməsinin əsas tərkibini vergilərin bölüşdürülməsi vasitəsi ilə həyata keçirilir. Dövlət büdcəsinin gəlirlərinin əsas tərkib hissəsini vergilər təşkil edir. Beləki, büdcə gəlirlərindəki vergilərdən daxilolmalar onun 9/10 hissəsini təmin edir.

Dövlət tərəfindən həyata keçirilən əsas siyasətlərdən biri də büdcə-vergi siyasətdir. Büdcə-vergi siyasəti özündə dövlət xərclərinin və vergitutmanın səviyyəsinin dəyişdirilməsi istiqamətində dövlətin həyata keçirdiyi bütün fəaliyyətlərinin məcmusu kimi öz əksini tapır. Bu satınalmalar büdcə hesabına yolların çəkilməsi, məktəblərin tikilməsindən tutmuş kənd təsərrüfatı məhsullarının, hərbi texnikanın alınmasına qədər olan xərcləri əhatə edə bilər. Bu halda istehlakçı formasında dövlətin özü çıxış edir. Dövlət həm öz şəxsi ehtiyaclarının ödənilməsi, həm də xidmət, istehsal bazarındakı tələbin tənzimlənməsi üçün bu satınalmaları həyata keçirir.

Büdcə siyasəti, dövlətin büdcə və vergi siyasətini, həmçinin büdcənin formalaşması siyasətini ifadə etmiş olur ki, bununla yanaşı maliyyə siyasətinin tərkib hissəsi kimi də sayılır.

Büdcə siyasəti özündə məcmu tələbin, məşğulluğun və gəlirin səviyyəsinə təsir etmək üçün dövlətin xərclərdən, vergiqoymadan və borclanmadan istifadə edərək həyata keçirdiyi siyasətlər məcmusu kimidə biruzə verir. Bunu vurğulamaq vacibdir ki, büdcə-vergi siyasətindəki dəyişiklik məcmu tələb və məcmu təklifin hər ikisinə təsir edir.

Büdcə-vergi siyasəti ilə iqtisadi proseslərə, onların həyata keçirilməsi proseslərinə, reallaşdırılan zaman tənzimlənməsi məqsədi ilə daim təsir etmiş olur. Bu təsir özünü dövlət büdcəsinin gəlir hissəsinin formalaşdırması məqsədi ilə vergitutulma sahəsində, həmçinin ölkə iqtisadiyyatının səmərəliliyinin artırılması, iqtisadi artımın inkişaf dinamikası, əhali məşğulluğu, pul dövriyyəsinin sabitləşdirilməsinin təmin olunması istiqamətində həyata keçirilmiş fəaliyyətlərin məcmusu kimi çıxış edir.

Büdcə-vergi siyasət milli iqtisadiyyata həm faydalı, həm də kifayət qədər mənfi təsir göstərmiş ola bilər. Dövlət maliyyəsinin sabit iqtisadi artımın təmin olunması yolunda əhəmiyyətli rol oynaması büdcə-vergi siyasətin işlənib hazır edilməsi və ardıcıl bir formada həyata keçirilməsini tələb etmiş olur.

Dövlətin həyata keçirdiyi büdcə-vergi siyasəti aşağıdakı göstərildiyi kimi məqsədlərə cavab verməlidir:

iqtisadi sahələr üzrə mövcud olan dövri tərəddüdlərin hamısının müəyyən hissələrinin hamarlaşdırılmasının təmin edilməsi iqtisadi artım sürətinin artırılması və dinamikliyin təmin edilməsi ölkə üzrə vətəndaşların tam məşğulluğunun təmin edilməsi inflyasiyanın mülayim sürətinin təmin edilməsi mövcud disbalansların bütün sahələr üzrə proqnozlarının işlənib hazırlanması qeyri-neft sahələri üzrə dinamik inkişaf balansının təmin edilməsi üçün müəyyən proqramların hazırlanması iqtisadiyyatın qeyri-neft sektoru üzrə dinamik artımının surətləndirilməsinin təmin edilməsi

**Sxem 1. Fiskal siyasət mexanizmi**




**Mənbə:** www.economy.gov.az

Fiskal siyasətinin həyata keçirilməsi üçün mühüm olan bir neçə amillər toplusu mövcuddur. Bu amillərin düzgün araçdırılması ilə siyasəti daha uğurlu həyata keçirmək mümkündür. Bunlar özünü aşağıdakı kimi göstərir:

- iqtisadiyyat üzrə vergi dərəcələrinin manipulyasiya edilməsinin təmin olunması
- transfert ödənişləri vasitəsi ilə təmin olunması
- dövlət xərclərinin bütün sahələri üzrə təmin olunması

Dövlətin büdcə-vergi siyasətinin əsas vasitələri kimi qanunvericilik əsasında fəaliyyət göstərən vergi dərəcələri və gömrük tariflərinin dəyişdirilməsindən, onların sayının və konkret növlərinin genişləndirilib-məhdudlaşdırılmaşından, yaranmış olan bu konkret vəziyyətdən asılı olması ilə əlaqədar dövlətin müxtəlif təyinatlı xərclərinin istiqamətlərinin cəmiyyətin üçün yaranacaq olan ümumi mənafeni və digər sözlə desək inkişafının daha mühüm problemlərinin həllinə yönəldilməsində istifadəsi mümkündür(Bədəlov, 2003).

Fiskal siyasətin diskret və avtomatik tiplərinin səciyyəvi olan bir neçə xüsusiyyəti vardır. Diskret fiskal siyasət fəal fiskal siyasət olub, vergi və xərclərin şüurlu surətdə dəyişdirilməsidir. Avtomatik fiskal siyasət passiv fiskal siyasət olub, iqtisadiyyatda baş verən təbii yüksəliş və enmələrlə bağlıdır

Vergsilərin hər biri ölkə üzrə mövcud işgüzar fəaliyyət səviyyəsindən və yaxud da dolayı yollar ilə asılılığı olması səbəbiylə bu proses hər zaman baş verən təbii bir prosesdir. İqtisadiyyatda mövcud obyektiv-subyektiv səbəblərlə bağlı rastlaşıldığı bu proses, avtomatik bir şəkildə ümumi vergi ödənişlərinin həcminə öz mənfi təsirini göstərməkdədir (Ağazadə, 2011).

Bütün tərkib hissələri aydın görmək üçün mövcud cədvələ baxmaq kifayət edər. Bu bölüşdürmə özünü aşağıdakı Cədvəl 1-də göstərir.

Dövlət büdcəsi mərkəzləşdirilmiş dövlət gəlirlərinin tərkib hissəsində, əhalinin rifah halının yaxşılaşdırılmasında, sosial-iqtisadi vəzifələrinin həll edilməsində mühüm rol oynayır.

Müxtəlif səviyyəli dövlət büdcələrindən gəlirlərin əhəmiyyətli hissələrinin mərkəzləşdirilməsi vahid maliyyə siyasətinin yürüdülməsinə şərait yaradır. Dövlət büdcəsinin gəlirləri təsərrüfat sisteminin mühüm əhəmiyyət kəsb edən sahələrinin inkişafına yönəldilmişdir. Həmçinin büdcə gəlirləri qeyri-istehsal sferasının tələbatlarının mümkün qədər eyni səviyyədə təmin edilməsinə imkan yaradır. Büdcə gəlirlərindən əlavə mərkəzləşdirilmiş dövlət gəlirlərinə dövlət

büdcədənkənar fondlarının vəsaitləridə əlave edilir. Bunlara sosial sığorta, təqaüd fondu və sair fondların vəsaitləri aid edilir.

**Cədvəl 1. Dövlət büdcəsi gəlirlərinin göstəriciləri(ümumi gəlirlərdə xüsusi çəki faizlə)**

| | 2001 | 2002 | 2003 | 2011 | 2013 |
|---|---|---|---|---|---|
| Dövlət büdcəsinin gəlirləri | 100 | 100 | 100 | 100 | 100 |
| **Vergilər Nazirliyi, o cümlədən** | 73,9 | 74,7 | 67 | 33,2 | 30,1 |
| Gəlir vergisi | 12,1 | 12 | 12,3 | 5,7 | 4,1 |
| Mənfəət vergisi | 15 | 16,2 | 14,6 | 10 | 11,9 |
| Əlavə dəyər vergisi | 19 | 23,6 | 21,8 | 10,8 | 9,3 |
| Aksizlər | 13,3 | 8,7 | 4,8 | 3,5 | 2,6 |
| Əmlak vergisi | 1,6 | 2,2 | 2,2 | 0,8 | 0,6 |
| Torpaq vergisi | 1,3 | 1 | 0,9 | 0,3 | 0,2 |
| Mədən vergisi | 6,1 | 5,5 | 4,6 | 1,1 | 0,6 |
| Sadələşdirilmiş vergi | 0,5 | 0,3 | 1 | 0,8 | 0,6 |
| Yol vergisi | 0 | 0 | 0 | 0,2 | 0,2 |
| **Dövlət Gömrük Komitəsi, o cümlədən** | 20,9 | 20,3 | 17,4 | 9,3 | 7,2 |
| Əlavə dəyər vergisi | 13,3 | 13,2 | 11,8 | 6,8 | 5,2 |
| Aksizlər | 0,8 | 0,8 | 0,7 | 0,6 | 0,5 |
| Gömrük rüsumları | 6,6 | 6,1 | 4,8 | 1,8 | 0,5 |
| Yol vergisi | 0,3 | 0,2 | 0,1 | 0,1 | 0,1 |
| Sair mənbədən gəlirlər | 5,2 | 5,0 | 15,6 | 57,5 | 62,7 |

**Mənbə:** Azərbaycan Respublikası Maliyyə Nazirliyinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir
**Link:** www.maliyye.gov.az

Büdcə gəlirlərinin sistemi öz əhəmiyyətinə əsas yeri dövlət istiqrazları tutur. Bunlardan yalnız büdcə kəsirinin olmaması üçün deyil, bir çox kapital xərclərinin, xüsusi qeyd etmək lazımdır ki, iqtisadiyyatın dövlət bölməsi hissəsində investisiya layihələrinin reallaşdırılmasının təmin olmasında istifadə edilir.

İqtisadiyyatda böhran vəziyyətinin yaranma təhlükəsi, əgər olarsa bu zaman dövlət istiqrazlarının vacibliyi daha ön plana gətirilir. Bu böhranlar baş verdiyi zaman istiqrazların artımındakı yüksəliş, müəyyən hallarda vergiləri də artımda keçə bilər. Çünki, böhran zamanı vergilər kifayət qədər qeyri-elastikliyə malik olur və müəyyən zaman ərzində eniş dövrünü yaşayır. Ümumilikdə, vergilər ilə dövlət istiqrazları arasında qarşılı əlaqə mövcuddur. Bunun əsas səbəbi dövlət istiqrazlarının ödənilməsinin maliyyə bazasının əsasını vergilərdən ibarət

olmasıdır. İstiqrazların, onların faizlərinin ödənməsi üzrə xərclərin artması, vergilərində artmasını şərtləndirmiş olur.

Büdcə gəlirlərinin tərkibi olduqca müxləlifliyi ilə seçilir. Onun tərkibi dövlət qarşısında qoyulan iqtisadi vəzifələr ilə müəyyən edilir. Büdcə gəlilərinə pul vəsaitlərinin büdcəyə daxilolma formaları kimi təsərrüfatçılığın sistemləşmiş forması və metodlarından ibarət olur. Dövlət büdcəsinin gəlirləri həm Ümum Daxili Məhsulun dəyərinin geniş təkrar istehsal prosesinin müxtəlif iqtisadi subyektlər arasındakı nəticəsi, həm də toplanmış dəyərin sonrakı bölgüsünün obyekti şəklində özünü biruzə vermiş olur. Ölkənin quruluş formasından asılı olaraq büdcə gəlirləri özünü dövlət büdcəsinin gəlirləri və yerli büdcələrin gəlirləri çəklində formalaşır. Büdcə gəlirlərinin bölgüsünü müxtəlif səviyyəli büdcələrin vəsaitlərinin qruplaşması təşkil etmiş olur. Bu büdcələrin gəlirlərinin formalaşdıran əsas mənbə qanunvericilik aktları təşkil edir. Büdcə gəlirləri özündə bir neçə bölmələri birləşdirir. Bura gəlirləri təşkil edən mənbələr və alınmasına görə qruplara, konkret gəlir növlərinə ayrılır. Beləliklə, büdcə gəlirlərini dörd təsnifat üzrə bölmək mümkündür və bunlar aşağıdakılardır:

1. Vergi növlərinə görə vergi daxilolmaları, yəni verg gəlirləri
2. İnzibati rüsumlar, sanksiya və cərimələr, həmçinin qeyri-vergi üzrə daxilolmalar
3. Maddi və qeyri-maddi aktivlərin satışından gəlirlər
4. Xarici və ya daxili səviyyəli büdcələrdən alınan kreditlər və digər vəsaitlər

Azərbaycanın dövlət büdcəsinin gəlirlərinin müxtəlif mənbələr üzrə yarandığını artıq bilirik, bunu biz aşağıdakı cədvəl 2 üzrə nəzərdən keçirdə bilərik:

Cədvəldən göründüyü kimi ölkəmizdə büdcə sistemi lazımı səviyyə üzrə formalaşdırılır. Yəni, mahiyyat etirabarı ilə büdcə sisteminin unikallığının və maliyyə dayanıqlığının ifadəsi olaraq bu cədvəl çıxış edir.

Büdcə gəlirlərinin strukturunu bayaq qeyd etdiyimiz kimi müxtəlif mənbələr təşkil edirdi. Bu mənbələrlə yanaşı, onların köməkçi bölmələri də mövcuddur. Respublikamızın vergilərdən və qeyri-vergi gəlirlərindən daxilolmaları özünü aşağıdakı şəkildə göstərmiş olur:

- Fiziki şəxslər vasitəsi ilə daxilolan gəlir vergisi
- Hüquqi şəxslər vasitəsi ilə daxil olan mənfəət vergisi
- ƏDV
- Aksizdən daxil olan vergi
- Büdcə təşkilatlarından daxil olan gəlirlər
- Maliyyə və qeyri-maliyyə müəssisələrindən daxilolmalar
- Alınmış olan dividentlər
- Maliyyə təşkilatlarından daxiloan gəlirlər
- Dövlət rüsumları
- Gömrük rüsumları
- Cərimə və sanksiyalar üzrə daxil olmalar.

**Cədvəl 2. Azərbaycan Respublikası Dövlət büdcəsinin gəlirlərinin icrasının tərkibi (mln.manat)**

| | 2003 | 2004 | 2005 | 2006 | 2011 | 2013 |
|---|---|---|---|---|---|---|
| Gəlirlərin cəmi | 1225,5 | 1509,5 | 2055,2 | 3868,8 | 15700,7 | 19159,7 |
| O cümlədən: Əlavə dəyər vergisi | | | | | | |
| Aksizlər | 67,0 | 72,4 | 141,0 | 187,4 | 495,0 | 594,7 |
| Mənfəət vergisi | 178,3 | 223,4 | 355,4 | 1360,5 | 1210,0 | 2279,6 |
| Əhalidən gəlir vergisi | 150,4 | 221,6 | 317,4 | 407,3 | 690,0 | 783,4 |
| Gömrük rüsumları | 12,6 | 76,9 | 101,2 | 139,3 | 215,0 | 285,4 |
| Torpaq vergisi | 11,3 | 14,1 | 15,3 | 18,5 | 35,0 | 31,2 |
| Əmlak vergisi | 26,6 | 32,2 | 40,4 | 55,8 | 102,0 | 116,3 |
| Mədən vergisi | 56,7 | 97,8 | 53,5 | 100,2 | 129,0 | 121,4 |
| Sadələşdirilmiş vergi | 12,2 | 16,6 | 24,0 | 32,0 | 95,0 | 117,5 |
| Yol vergisi | 1,1 | 1,2 | 10,6 | 11,9 | 36,0 | 54,1 |
| Dövlət rüsumları | 23,3 | 27,0 | 35,7 | 33,0 | 85,0 | 115,3 |
| Sair gəlirlər | 209,7 | 277,3 | 288,2 | 216,1 | 7278,4 | 11895,2 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib olunmuşdur.
**Link:** www.stat.gov.az

## 1.2. Dövlət gəlirləri iqtisadi kateqoriyanın əsası kimi

Maliyyə prosesinin fəaliyyəti zamanı qarşılıqlı əlaqədə olan iki proses özünü əsas göstərir. Dövlət strukturlarının sərəncamındakı maliyyə resurslarının səfərbərliyə alınmasıyla, gəlirlərin formalaşması və bu formalaşmış vəsaitlərin müxtəlif dövlət tələbatlarının təmin olunması üçün istifadəsinin bir-biri ilə qarşılıqlı əlaqəsi meydana gəlmiş olur. Bu proses özünü ilkin olaraq dövlət gəlirləri kimi, ikinci mərhələ kimi isə dövlət xərclərində öz əksini tapmış olur.

Azərbaycanda dövlət istehsal vəsaitlərinin müəyyən bir hissəsinin mülkiyyətçisi hesab edilir. Bununlada, ictimai istehsalın hər bir bölməsində maliyyə resurslarının formalaşması və istifadəsi ilə əlaqədar olan maliyyə münasibətləri meydana gəlir. Bu münasibətlər özünü ümumi system üzrə dövlət gəlirlərinin və xərclərinin əsas mövqeyini müəyyən etmiş olur.

Dövlət gəlirləri bir iqtisadi kateqoriya kimi mövcud olmağının mühüm amil kimi şərtlərinin tədqiq edilməsi ən vacib problemdən biri kimi hesab edilir. Dövlət gəlirlərinin iqtisadi kateqoriya kimi zəruri edən birinci amil onun istehsalın genişləndirilməsinə olan tələbatın ödənilməsi ilə bağlılığının əks olunması hesab edilir. İkinci amil kimi isə o özünü mövcud social-iqtisadi idarəetmə strukturunun saxlanılması və müdafiəsinin zəruriliyindən yaranmış olur. Digər tərəfdən bu gəlirləri çərtləndirən bu amillər onun formalaşmasında mühüm rol oynamır, sadəcə proses nəticəsində meydana gəlmiş olur.

Dövlət gəlirlərinin yaranıb formalaşmasında ən başlıca rolu səmərəli və davamlı iqtisadi artım, həmçinin əmək məhsuldarlığı başlıca yeri tutur. Dövlət gəlirlərinin formalaşmasında iqtisadi artım və əmək məhsuldarlığı əvəzsiz rol oynayır. Buradakı əsas şərt mövcud iqtisadi sistem və strukturun normal fəaliyyət göstərməsiylə dövlət gəlirlərinin formalaşmasına obyektivliyindən irəli gəlmiş olur. Dünya təcrübəsi bir daha sübut edir ki, dövlət gəlirləri olmadan bunların formalaşmasından söz gedə bilməz. Yəni, bu funksiyanı yerinə yetirə bilən elə bir iqtisadi sistem və yaxud model formalaşmağına imkan yaranmayacaqdır. Burdanda belə bir nəticəyə gələ bilirik ki, dövlət gəlirləri funksiyasını öz öhdəsinə götürə biləcək bir model yoxdur.

Dövlət gəlirləri mühüm bir sosial-iqtisadi kateqoriya olmaqla mövcud iqtisadi sistemin ən vacib amilini şərtləndirmiş olur. Dövlət gəlirləri iqtisadi-sosial kateqoriya olmaqla cəmiyyət üzvlərinin həyatında əsaslı yer tutur. Bu müxtəlif şərtlər daxilində dövlət gəlirləri özünü əmək sərfiyyatında, həmçinin onların müəyyən pul vəsaitlərinə çevrilmiş formasını ifadə etmiş olur. (Sadıqov,2001) Beləki, dövlət gəlirləri yığım fonduna, digər tərəfdən əsas əmək haqqından əlavə olaraq maddi və mənəvi tələbatın ödənilməsi üçün müəyyən qədər vəsait tələb edir.

Dövlət gəlirləri özlüyündə fasiləsiz və davamlı olaraq artmalıdır və bu artım obyektiv olaraq baş verməlidir. Dövlət gəlirlərinin artımı birbaşa olaraq ümumi daxili məhsulun, həmçinin milli gəlirin mütəmadi artımına səbəb olmuş olur. Dövlət gəlirlərinin formalaşdırılması və idarə edilməsi müəyyən məqsəd və prinsiplərə əsaslanaraq həyata keçirilir. Gəlirlərin dövlət tərəfindən tənzimlənməsi özündə elmi, məntiqi ardıcıllıqlara əməl olunaraq icra edilməni tələb etmiş olur. Dövlət gəlirlərinin ilkin bölüşdürülməsi ən əvvəl milli gəlirlərin bölüşdürülməsini əhatə edir. Dövlətin gəlirləri və dövlətin müəssisələrinin gəlirləri arasındakı nisbət və ya hədd şərti xarakter daşıyır, çünki sözügedən nisbət eyni mülkiyyət hüuquq çərçivəsində baş verir. Bu çərçivədə gəlirlərin dövlət gəlirlərinə və ya müəssisə (özəl) gəlirlərinə ayrılması aşağıdakı amillərin qarşılıqlı və əsaslı təsiri nəzərə alınmaqla müəyyən edilir:

- xalis gəlirlərin kəmiyyəti;
- təsərrüfatın maddi - qeyri-maddi resurslarına tələblər;
- ictimai və ya sosial tələblər.

Dövlət gəlirləri ilə müəssisə gəlirlərinin tənzimlənməsində mənfəətdən ayırmalarla yanaşı, digər bir amildə formalaşdırmış olur. Dövlət gəlirlərinin formalaşmasında əsas rollardan birini də qeyri-vergi gəlirlərdi tutur. Bütün bunlar bir daha onu göstərir ki, qeyri-vergi üzrə gəlirlər bölgü münasibətləri və istehsal sferası ilə birbaşa olaraq qarşılıqlı münasibətdə olan mürəkkəb bir iqtisadi kateqoriya kimi özünü biruzə vermiş olur.Burada bir biri ilə sıx əlaqədə olan istehsal, maliyyə və qiymət sistemləri bir-biri ilə üzvü surətdə asılı olmuş olur. Həmçinin dövlət gəlirləri üzrə qeyri-vergili gəlirlər bu və ya digər formada bir

neçə münasibətlərin özünü birləşdirməsi ilə əlaqədar olur(Novruzov, 2007). Bu bölüşdürmə özünü aşağıdakı bölmələrin bölgüsündə göstərir:

- iqtisadiyyat üzrə bölmələr
- maddi və qeyri maddi istehsal sahələrinin bölgüsü üzrə
- ödəmə fondu, istehlak və yığım fondlarının qarçılıqlı əlaqəsinin bölgüsü üzrə
- dövlət ilə vətəndaçlar arasındakı münasibətlər üzrə
- əhali qrupları arasında və s.

Dövlət gəlirlərinin formalaşdırılması zamanı maliyyə, vergi və qeyri-vergi gəlirlərin formalaşdırılması, həmçinin bu və digər münasibətlərlə bağlılığından irəli gələn paralel münasibətlərlə həyata keçirilmiş olur. Bu münasibətlərin hər birinin özünün təyinatı və məzmunu olur. Bu səbəbdəndə dəyər və gəlir formaları elə bölüşdürülür ki, bu prosesdə elmi prinsiplərə mütləq formada əməl edilsin.

Dövlət gəlirləri sistemində mərkəzi yeri vergilər tutur. Onlar bazar tipli inkişaf etmiş iqtisadi sistemdə fəaliyyət gösətərən maliyyənin əsas xüsusiyyətlərini ifadə edirlər. Məhz vergilər bazar iqtisadiyyatının fəaliyyəti şəraitində maliyyə münasibətlərinin ümumi sistemində xüsusi əhəmiyyətli rola malikdir. Fiskal siyasətin əsas vasitəsi kimi vergi hesab olunur. Ölkə üzrə bütün vergilərin yığılmasını, iş fəaliyyəti üzrə işgüzar fəallıqların tənzimlənməsini, həmçinin bir sıra sosial vəzifə və məqsədlərin həll olunması üçün dövlət büdcəsindəki mövcud vəsaitlərdən istifadəni və onun imkanlarının kompleks şəkildə birləşdirir. Belə bir siyasətin başlıca vasitələrini digər formada vergi dərəcələri, vergitutma obyektləri və vergi növlərinin dəyişdirilməsiylə əlaqədar olan məsələlər formalaşdırır.

Cədvəl 3-də son 5 il üzrə maliyyə-kredit sahəsində həyata keçirilən islahatlar dövlət büdcəsinə daxilolmalarda da öz əksini tapdığı aydın görünür. Dövlət büdcəsinin gəlirləri 1995-ci ildə 316.9 milyon manat təşkil etdiyi halda, 2000-ci ildə 714.6 milyon manat, 2005-ci ildə 2055.2 milyon manat, 2015-ci ildə 19438.0 milyon manat və nəhayət 2016-cı ildə proqnoz göstəricilərə əsasən 14566.0 milyon manat hesablanmışdır. Büdcə kəsiri isə müvafiq olaraq, 2015-ci il üzrə 1662.0

milyon manat olaraq icra olunmuş və 2016-cı il üzrə 1698.0 milyon manat olması nəzərdə tutulmuşdur(www.stat.gov.az).

**Cədvəl 3. Azərbaycan Respublikasının 2012-2016-cı illər dövründə dövlət büdcəsinin gəlirləri və xərcləri**

| Göstəricilər | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|
| Ümumi Daxili Məhsul(mln.AZN) | 53995,0 | 54740,8 | 58568,9 | 59380,4 | 57765,3 |
| Büdcə gəlirləri(mln.AZ) | 17281,5 | 19496,3 | 18400,5 | 19438,0 | 14566,0 |
| Büdcə gəlirlərinin ÜDM-də xüsusi çəkisi (%) | 32,0 | 35,6 | 31,4 | 32,5 | 25,2 |
| Büdcə xərcləri(mln.AZN) | 17416,4 | 19143,4 | 18709,0 | 21100,0 | 16264,0 |
| Büdcə xərclərinin ÜDM-də xüsusi çəkisi (%) | 32,2 | 34,9 | 34,3 | 35,3 | 28,2 |
| Büdcə kəsiri(mln.AZN) | -1349,4 | 3528,3 | -3084,4 | -1662,0 | -1698,0 |
| Büdcə kəsirinin ÜDM-də xüsusi çəkisi (%) | 2,4 | 6,4 | 5,2 | 2,7 | 2,9 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.
**Link:** www.stat.gov.az

Dövlət büdcəsinə daxilolmaların böyük əksəriyyəti vergi daxololmalarının payına düşdüyündən, bu real olaraq Azərbaycan iqtisadiyyatının inkişafı onun imkanlarının daha da genişləndiyini göstərir. Bunu aşağıdakı cədvəl 4-də görmək olar.

Göründüyü kimi, büdcə gəlirlərinin içərisində həcminə və xüsusi çəkisinə görə ən yüksək yeri əlavə dəyər vergisi, ondan sonrakı mövqeyi isə hüquqi şəxslərdən alınan mənfəət vergisi tutur. ƏDV-nin ümumi gəlirlərdəki xüsusi çəkisi 2010-cu ildə 18.2% təşkil etdiyi halda, 2012-ci il üzrə 8.6%, 2014-cü il üzrə 11.6%, 2015-ci ildə 20.2%, 2016-cı il üzrə gözlənilən xüsusi çəkisi isə 23.6% civarında formalaşmışdır. Hüquqi şəxslərdən alınan mənfəət vergisinin ümumi gəlirlərdəki xüsusi çəkisi 2010-cu ildə 12.5%, 2012-ci il üzrə 10.3%, 2014-cü ildə 12%, 2015-ci ildə isə 11.3% təşkil etmişdir(www.maliyye.gov.az). Belə ki, büdcə

gəlirlərinin strukturunda fiziki şəxslərdən gəlir vergisi və hüquqi şəxslərdən mənfəət vergisinin həcmi mühüm önəm kəsb etməkdədir. Çünki birinci vergi növü əhalinin gəlir səviyyəsini, həyat səviyyəsini əks etdirdiyi halda, ikinci vergi növü sahibkarlığın inkişafı və biznes gəlirlərinin adekvatlığını göstərir. Qalan digər vergi növləri dolayı vergi növləri olduğundan, əsasən yalnızca fiskal indikator kimi nəzərə alınır.

Dövlət gəlirləri qeyd etdiyimiz kimi bir neçə formada özünü göstərmiş olur. Buaraya, ayrı-ayrı fərdlər, sosial qruplar, həmçinin iqtisadi subyekt kimi dövlət əsas şərt rolunu oynayır.

Dövlət gəlirlərinin özünə xas olan formada reallaşma və hərəkət etmə mexanizmi vardır. Müasir dövrümüzdə dövlət gəlirləri xüsusi müəəyənləşdirilmiş forma və metodlar vasitəsi ilə bölünür və idarə edilir. Gəlirlərin xüsusiyyətlərindən asılı olmayaraq gəlirlər dövlət tərəfindən tənzimlənərək bölüşdürülməli və istifadə edilməsi olduqca vacibdir. İqtisadi ədəbiyyatlarda və real həyatın özündə gəlirlər özünü müxtəlif formalarda ifadə edir ki, bu müxtəlifdə maliyyə proseslərinin müxtəlifliyi nəticəsində meydana gəlmiş olur.

Dövlət gəlirlərinin özünə xas olan formada reallaşma və hərəkət etmə mexanizmi vardır. Müasir dövrümüzdə dövlət gəlirləri xüsusi müəəyənləşdirilmiş forma və metodlar vasitəsi ilə bölünür və idarə edilir. Gəlirlərin xüsusiyyətlərindən asılı olmayaraq gəlirlər dövlət tərəfindən tənzimlənərək bölüşdürülməli və istifadə edilməsi olduqca vacibdir.

İqtisadi ədəbiyyatlarda və real həyatın özündə gəlirlər özünü müxtəlif formalarda ifadə edir ki, bu müxtəlifdə maliyyə proseslərinin müxtəlifliyi nəticəsində meydana gəlmiş olur.

Dövlət büdcəsi gəlirlərində cədvəl 4-dəki müşahidə olunan dövri olan artım dinamikasını sezmək mümkündür.

Büdcə gəlirləri üzrə vergi və yığımlardan mədaxillər üzrə dövri artım dinamikası olub, bu göstəricilər həm də xüsusi çəkilər formasındada özünü göstərmişdir.

**Cədvəl 4: Azərbaycan Respublikasının 2010-2015-ci illər ərzində dövlət büdcəsinin gəlirlərinin strukturu (mln. AZN)**

| Göstəricilər | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|
| **Cəmi büdcə gəlirləri** | 11403,3 | 15700,7 | 17281,5 | 19496,3 | 18400,5 | 19438,0 |
| **Xüsusi çəkisi** | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| **ƏDV** | 2082,4 | 2121,0 | 1423,0 | 2768,6 | 2139,0 | 3456,0 |
| **Xüsusi çəkisi** | 18,2 | 13,5 | 8,6 | 14,2 | 11,6 | 20,2 |
| **Aksizlər** | 514,9 | 495,0 | 454,0 | 594,0 | 784,5 | 684,0 |
| **Xüsusi çəkisi** | 4,5 | 3,2 | 2,6 | 3,0 | 4,2 | 3,5 |
| **Hüquqi şəxslərin mənfəət vergisi** | 1429,8 | 1210,0 | 1780,0 | 2279,0 | 2217,0 | 2211,0 |
| **Xüsusi çəkisi** | 12,5 | 7,7 | 10,3 | 11,6 | 12,0 | 11,3 |
| **Mədən vergisi** | 130,0 | 129,0 | 125,2 | 121,0 | 116,0 | 116,0 |
| **Xüsusi çəkisi** | 1,1 | 0,8 | 0,7 | 0,6 | 0,6 | 0,6 |
| **Fiziki şəxslərdən gəlir vergisi** | 590,2 | 690,0 | 722,0 | 783,0 | 882,0 | 982,0 |
| **Xüsusi çəkisi** | 5,2 | 4,4 | 4,2 | 4,1 | 4,8 | 5,0 |
| **Əmlak vergi** | 101,8 | 102,0 | 102,0 | 116,0 | 132,0 | 148,0 |
| **Xüsusi çəkisi** | 0,9 | 0,6 | 0,6 | 0,6 | 0,7 | 0,8 |
| **Torpaq vergisi** | 35,3 | 35,0 | 28,0 | 31,0 | 48,0 | 48,0 |
| **Xüsusi çəkisi** | 0,3 | 0,2 | 0,2 | 0,2 | 0,3 | 0,2 |
| **Sadələşdirilmiş vergi** | 65,4 | 95,0 | 96,0 | 117,0 | 130,0 | 67,6 |
| **Xüsusi çəkisi** | 0,6 | 0,6 | 0,6 | 0,6 | 0,7 | 0,3 |
| **Yol vergisi** | 24,8 | 36,0 | 28,0 | 54,0 | 49,5 | 67,6 |
| **Xüsusi çəkisi** | 0,2 | 0,2 | 0,2 | 0,3 | 0,3 | 0,3 |
| **Gömrük rüsumu** | 218,2 | 215,0 | 232,0 | 285,4 | 330,0 | 348,4 |
| **Xüsusi çəkisi** | 1,9 | 1,3 | 1,3 | 1,5 | 1,8 | 1,8 |
| **Yerli vergi və yığımlar** | 462,9 | 447,0 | 499,3 | 696,6 | 779,4 | 834,5 |
| **Xüsusi çəkisi** | 4,0 | 2,8 | 2,9 | 3,6 | 4,3 | 4,3 |
| **Digər gəlirlər** | 298,4 | 296,4 | 320,5 | 370,0 | 321,0 | 214,5 |
| **Xüsusi çəkisi** | 2,6 | 1,9 | 1,9 | 1,9 | 1,7 | 1,1 |
| **Sair gəlirlər** | 250,0 | 260,0 | 164,0 | 140,0 | 160,0 | 180,0 |
| **Xüsusi çəkisi** | 2,2 | 1,7 | 0,9 | 0,7 | 0,8 | 0,9 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.
**Link:** www.stat.gov.az

Ölkədə fiziki şəxslərdən gəlir vergisi üzrə illərə görə artım dinamikası qeydə alınmışdır.

**Diaqram 1. Büdcə daxilolmalarının strukturu**




**Mənbə:** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.
**Link:** www.economy.gov.az

Diaqramdan görünən kimi DNF – dən transfertlər 41.2%, Vergilər Nazirliyi üzrə 45.3%, Dövlət Gömrük Komitəsi üzrə 10.9% büdcəyə daxil olmalar qeydə alınıb.

**Şəkil 1 Gəlirlər**




**Mənbə:** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.
**Link:** www.economy.gov.az

# II Fəsil AZƏRBAYCANDA QEYRİ-NEFT SEKTORUNUN DİNAMİK İNKİŞAFININ QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.1. Azərbaycan iqtisadiyyatının mövcud vəziyyətinin təhlil edilməsi

Azərbaycan iqtisadiyyatının mövcud vəziyyəti bütünlükdə iqtisadiyyatın davamlı və dayanıqlı iqtisadi inkişafının təhlil edilməsiylə qiymətləndilir. Ölkə iqtisadiyyatının hal-hazırkı vəziyəti bütün sahə iqtisadiyyatının bütünlükdə inkişafını özündə şərtləndirir.

Ümumilikdə, qeyd olunması zəruri olan nüanslardan biri odur ki, Azərbaycan neft və qaz ölkəsi olsa da hal-hazırda əsas məqsəd qeyri-neft sektorunun inkişafına yönəldilir. Bu gün neft-qaz siyasəti xalqımızın rifah halının yaxşılaşdırılmasında və onun ictimai-siyasi həyatında böyük rol oynayır. Ölkəmizin sərvəti olan neft ulu öndər Heydər Əliyevin memarı kimi bilinən, neft-qaz strategiyasının uğurla həyata keçirilməsi sayəsində ölkəmizdə dinamik inkişafın təmin edilməsi, ölkə vətəndaşlarının rifahının yaxşılaşması, dünya iqtisadi inkişaf sisteminə inteqrasiya edilməsini təmin edilmiş olur. Bu siyasətin uğurla davam etdirilməsi, indi daha da prioritet istiqamətlərinin qiymətləndirilərək cənab prezident İlham Əliyevin həyata keçirdiyi strategiya ilə neft sektronun gəlirlərinin qeyri-neft sektorunun inkişafına yönləndirilir.

Azərbaycanın davamlı inkişaf sahəsində əldə etmiş olduğu böyük uğurlar inkişafının kompleksləşdirirək Azərbaycan modelinin yaranmasına təminat vermiş oldu. Azərbaycan modelindən tətbiq edərək uğurlu inkişaf modeli qurmağa imkan verir. Davamlı və dayanıqlı inkişafa əsaslanan bu modelin strateji istiqamətləri müxtəlif cür səciyyələndirilməsi mümkündür. Buna aşağıdakı kimi şəkil-2 də nəzərdən keçirdə bilərik.

Belə bir modelin iqtisadiyyata tətbiq edilməsi ilə hal-hazırda milli iqtisadiyyatın dayanıqlı, intensiv və sürətli inkişafının əsasının təmin edilməsinə zəmin yaratmış olunur.

**Şəkil 2. Azərbaycanın inkişaf modelinin strateji istiqamətləri**




**Mənbə:** www.economy.gov.az

Bu modelin tətbiq edilməsindəki əsas məqsəd perespektiv sahələr üzrə sosial-iqtisadi siyasəti yerinə yetirilməsində əsas spesifik xüsusiyyətlərini göstərilmiş istiqamətlərin fəaliyyətlərini paralelləşdirilmiş şəkildə əlaqələndirilən proqramları tətbiq edilməsi olduqca önəmli sayılır. Bunun tətbiq edilməsi ilə qeyri-standart sayılan, lakin sosial-iqtisadi inkişafın bütün qanunauyğunluqlarının nəzərə alınması birmənalı olaraq vacib sayılır.

Azərbaycanın iqtisadi inkişaf sahələrində əldə edilmiş olan hər bir nailiyyətlərin ölkənin sosial-iqtisadi islahatların, tətbiq edilən inkişaf modelinin modernləşdirilməsi, iqtisadi sahələrin rəqabətqabiliyyətliliyinin və səmərəliliyinin olmasının tərənnümüdür. Bu siyasət qısa bir müddətdə ölkə iqtisadiyyatındakı köklü surətdə keyfiyyət və kəmiyyət dəyişikliklərinin olmasına səbəb olmuş olur.

Qeyd etmək lazımdır ki, ölkənin sosial-iqtisadi inkişafı artıq yenibir kəmiyyət və keyfiyyət mərhələsinin mərkəzində yer almaqdadır. Bu mərhələnin əsas

məqsədi Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliyinin yüksəlməsinə və dünya iqtisadi inteqrasiya sisteminə səmərəli formada daxil olmasına nail olmaqla yanaşı, uzun müddətli perespektivə ölkəmizdə davamlı iqtisadi inkişafın dayanıqlılığını təminindən ibarət olmuş olur. Azərbaycanın malik olduğu iqtisadi potensialın gücləndirilməsi və bu potensialın kompleks şəkildə səmərəli reallaşdırılması, qeyri-neft sektorunun inkişaf etdirilməsinin səmərəliliyinin təşkil edilməsi, ölkənin hər bir regionu üzrə iqtisadi potensiallarından tam və səmərəli istifadə edilməsinin təmini, regionların inkişafının tarazlığının təmin edilməsi, yeni-yeni iş yerlərinin açılmasının təmin edilməsi, kiçik və orta sahibkarlığın inkişafının təmin edilməsi, bütün sosial xidmətlərin hər birinin həcminin yüksəldilməsinin təmin edilməsi qarşıya qoyulmuş əsas məqsədlərdəndir.

Milli iqtisadiyyatın inkişafı bir çox mürəkkəb struktur birləşmələrindən ibarət olan vəzifələrin tətbiq edilməsi və onlara sistemli şəkildə baxılması olduqca vacibdir. Burada mühüm məqsəd siyasi və iqtisadi perespektivlərin müəyyən edilməsi ilə milli iqtisadiyyatın dayanıqlı inkişafını təmin edilmiş olur. Bütün məqsəd və vəzifələr ardıcıllıq olaraq həyata keçirilir ki, burada da milli iqtisadiyyatın milli maraq və məqsədlər çərçivəsində davamlı inkişafına konseptual yanaşma təmin edilmiş olur. Bir qayda olaraq prioritet istiqamətlər müəyyən edilməli və reallaşdırılması təmin edilməlidir. Qloballaşmanın müasir dövrdə bütün sahələr üzrə tendensiyaların adekvat dövlət modelinin formalaşdırılmasının həyata keçirilməsi mütləq şərt sayılır.

Dövlət tərəfindən hazırlanan və tətbiq edilən bu tənzimləmə mexanizmləri, alətləri kəsərli olması tələb edilir. Bu istiqamətdə dövlətin milli iqtisadiyyatın balansı taralaşdırılmış inkişaf üzrə prioritet və strateji vəzifələrinin əsas funksiyalarına aşağıdakılar daxil edilə bilər:

- İqtisadiyyatın davamlı olaraq artımı iqtisadi inkişafı təmin etmiş olur
- Iqtisadi inkişaf proseslərində insan kapitalı amilinə üstünlük verilməsini təmin etmiş olur
- İqtisadi potensialın gücləndirilməsini təmin etmiş olur
- İqtisadiyyatın hər bir sahəsi üzrə struktur dəyişikliklərinin təmin etmiş olur

- İqtisadi sahələrin diversifikasiya proseslərinin optimallaşdırılmasının təmin etmiş olur
- İqtisadi artımın optimallaşdırılmasını təmin etmiş olur
- İqtisadi inkişafın stimullaşdırılması mexanizmlərinin tətbiq edilməsini təmin etmiş olur

Müasir dünya hər bir ölkənin iqtisadi vəziyyəti onun milli iqtisadiyyatının inkişaf gücü ilə səciyyələndirilir. Ölkənin əldə etdiyi nailiyyətlər, onun mövcud iqtisadi vəziyyəti və perspektivləriylə onun qüdrəti müəyyən edilmiş olur. Milli iqtisadiyyatı qüdrətli olan ölkələrin hər birinə beynəlxalq təşkilatların və həmçinin beynəlxalq iqtisadi-maliyyə korporasiyalarınında münasibətləri fərqli olur.

Çoxprizmalı yanaşmaların olduğu bir dövrdə, ölkələrin beynəlxalq inteqrasiya şəraiti daxilində ölkələrin daim rəylərində öz mənfəətlərini əsas hesab edir, beynəlxalq əlaqələr zəminində mövcud olan dövlətlərarası münasibətlərin deyişkənliyi hər zaman fərqlənir. Burada ölkələr arasındakı aparılan inteqrasıya bir başa olaraq tesir edərək, ölkələr arasındakı standartları tənzimləməyə cəhd edilir. Bu tendensiyası hər zaman gözlənilməlidir. Bu səbədəndə milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin təkmilləşdirilməsi dövlət məqsədi xarakterini daşıyır.

Milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyi dedikdə daxili və ya xarici bazarlarda digər iştirakçılar ilə təqdim etdikləri zəngin çeşid və yüksək keyfiyyətli məhsul və ya xidmətlərlə kifayət qədər rəqabət qabiliyyətinə malik firmaların varlığı kimi anlaşılır. Xarici bazarlara ixrac edilən məhsul və xidmətlərin kəmiyyət və keyfiyyət göstəricilərinin yüksək olması rəqabətqabiliyyətlilik haqqında müəttən informasiya vermiş olsada, eyni zamanda milli və xarici kapitalın inteqrasiya prosesi ilə əlaqədar uyğunlaşma şərtləri də bir o qədər ciddi xarakterə malik olur. Bu səbədəndə dövlətin iqtisadi sferanı yaxşılaşdırma funksiyaları meydana gəlir, bu da ilk öncə özünü xarici kapitalın cəlb olunması ilə səciyyələnir.

Bir qayda olaraq qeyd etməliyik ki, dünya ölkələrinin müxtəlifliyi özünü onların tarixi-iqtisadi inkişafı,ölkəyə xas olan əhalinin milli adət-ənənələrini, ölkə üzrə mövcud olan iqlim şəraitini, malik olduğu təbii resurslarını, əhalinin tərkib müxtəlifliklərini, mövcud sosial cəhətləri və sair ilə bildirmiş olur. Elə bu

səbəbdəndə milli iqtisadiyyatımızın inkişafını və onun yüksəliş meyarları ümumiləşdirilmiş bir qayda və ya metodika vermək elə də asan məsələ deyildir. Milli iqtisadiyyatı ümumi bir tərif kimi vermək tam olaraq mümkün deyildir. Buna baxmayaraq milli iqtisadiyyatın tərkibini təşkil edən vəziyyətlərin təxmini də olsa təsnifatını aşağıdakı kimi bildirə bilərik:

- Milli iqtisadiyyat iqtisadi amillərin bütünlükdə milli zəmində özünəməxsus təşkilidir
- Milli iqtisadiyyat nəzəriyyəsi ölkənin iqtisadi potensialını təşkilidir
- Milli iqtisadiyyat məhsuldar qüvvələrin yerləşdirilməsinin təşkilidir
- Milli iqtisadiyyatın milli bazardakı mövqeyinin tədqiq edilməsi
- Milli iqtisadiyyatın dünya iqtisadiyyatındakı mövqeyini tədqiq edilməsi
- Milli iqtisadiyyatın inkişafında dövlətin iqtisadiyyata müdaxiləsinin müəyyən edilməsi
- Milli iqtisadiyyatın inkişafının forması və dərəcəsini, milli iqtisadi qaydanın yaranmasının təşkil edilməsi
- Milli iqtisadiyyatda cəmiyyət psixologiyasının davranışlarda müəyyən edilməsi

Beləliklə, bunları tədqiq edilməsi ilə milli iqtisadiyyatın əsas mahiyyəti öyrənilmiş olur. Bu sadalananlar milli iqtisadiyyatın əsas mahiyyətini təşkil edir.

## 2.2. Qeyri-neft sektorunun inkişaf perspektivlərinin dinamikası

Azərbaycanın davamlı və dayanıqlı inkişafının təmin edilməsiylə onun iqtisadiyyatının inkişafının intensivliyinə gətirib çıxarmış olur. Ölkə iqtisadiyyatımız özünü iki cür biruzə verir: neft sektorunun inkişafı və qeyri-neft sektorunun inkişafı. Bildiyimiz kimi Azərbaycan neft ölkəsi olduğundan inkişafın əsas hissəsi neft sektoruna istiqamətlənmiş olur. Buradakı əsas məqsəd neft siyasəti sayəsində qeyri-neft sektorunun inkişafının əsasını qoymaqdan ibarətdir. Ölkə başçısının əvvəlcədən düşünülmüş olan və məqsədyönlü şəkildə həyata keçirilən sosial-iqtisadi siyasətin əsasını bu siyasət təşkil edir. Bu siyasətin əsas məqsədi Azərbaycan iqtisadiyyatının diversifikasiyalı bir iqtisadiyyatın əsasını təşkil

etməkdən ibarətdir. Ölkə iqtisadiyyatının davamlı inkişafı məhz iqtisadiyyatın şaxələndirilməsi əsas rola malikdir. Ölkə rəhbərinin dekabrın 6-sı 2016-cı ildə imzalamış olduğu fərman ilə ona nail olunmağa başlanıldı. Bu özünü Strateji Yol Xəritəsində tapmış oldu. Buradakı baçlıca hədəflərdən biri qeyri-neft sekrotunun inkişafını təmin etməkdən ibarət olmuşdur (Strateji Yol Xəritəsinin, 2016). Həyata keçirilən çoxşaxəli və əsaslı islahatlar nəticəsində Azərbaycanda qeyri-neft sektoru inkişaf edir, ixrac imkanları olduqca genişlənməkdədir, həmçinin idxala olan asılılıq əsaslı dərəcədə azalmaqdadır.

Qlobal inteqrasiya dövründə baş verən dəyişikliklər, maliyyə böhranları və neft qiymətlərinin dəyişkənliyi, ucuzlaşmağa meylli olması, iqtisadi inkişafa qlobal təzyiqin yüksəlməsinin və sair qarşısının alınması üçün yeni bir sistemin yaradılmasına ehtiyac duyulurdu. Məhz bütün bunları nəzərə alaraq strateji yol xəritəsinin işlənərək hazır edilməsi və tətbiq edilməsini sürətini intensivləşdirirdi. Elə bu səbəbdəndə milli iqtisadiyyatın dayanıqlı inkişafını təmin edilməsi üçün Strateji Yol Xəritəsi qəbul edildi. Qeyd edək ki, milli iqtisadiyyat perespektivinin Strateji Yol Xəritəsi üzrə bir neçə dövrlərdən ibarətdir. Buradakı dövrlər qısa, orta və uzunmüddətli olmaqla hissələrə bölünürlər. Bunların səmərəli şəkildə həyata keçirməklə inkişaf proqramlarının uğurlu tətbiq edilməsini təmin etmiş oluruq. Ümumilikdə, Strateji Yol Xəritəsi özündə üç dövrü birləşdirir. Bura daxildir:

- 2020-ci ildə daxil olmaqla
- 2025-ci ildə daxil olmaqla
- 2025-ci ildən sonra olan illər

Qeyd edək ki, ölkə rəhbərinin göstərişi ilə strateji yol xəritələrinin uğurla tətbiq edilməsi makroiqtisadi sabitliyə, qeyri-neft sektorun inkişafına, idxal prosesinin azalmasına, ixracın yüksəlməsinə, maliyyə balansının yaxşılaşdırılmasına, sahibkarlıq mühitinin formalaşmasına, infrastrukturun təkmilləşdirilməsinə, sosial rifahın yüksəldilməsinə xidmət etmiş olur.

Qeyri-neft sektorunun inkişaf perspektivlərinin dinamikası üzrə strateji yol xəritəsində qeyd edildiyi kimi qeyri-neft sektorunun dinamik inkişafının və rəqabətqabiliyyətliliyinin, inklüzivliyinin, həmçinin rifahın əsaslı şəkildə

yüksəldilməsi, investisiyaların cəlb edilməsini, azad iqtisadi rəqabət mühitinin formalaşmasına, iqtisadi bazarlara çıxışın sərbəstliyinin təmin edilməsi, azad sahibkarlıq imkanlarının genişləndirilməsinə və qeyri-neft sektorları üzrə insan kapitalının inkişafının səmərələşdirilməsinə daha şərait yaradacaqdır. Bunun nəticəsi olaraq Azərbaycanın dünya iqtisadiyyatı üzrə qeyri-neft sektorunu göstəricilərinin inkişaf etdirilməsi istiqamətində mövqeyini daha da gücləndirmiş olacaqdır. Qeyri-neft sektorunun inkişaf etdirməklə sosial bazanın yüksəlməsinə nail olunmuş olunur və ölkəmizi yüksək gəlirli ölkələr qrupuna daxil olması bu yol ilə dahda surətləndirilmiş olur.

Ekspertlərin apardığı qiymətləndirməyə görə, bu inkişaf konsepsiyası ilə hər bir istiqamət üzrə qlobal meyillərin gücləndirilməsinə, iqtisadiyyatın çoxşaxəli meyl almasına şərait yaradaraq, qeyri-neft iqtisadiyyatının 360 dərəcəli diaqnostikasının tərtib edilir və tədbirlər planı hazırlanır, həmçinin nəticə indikatorlarının hər birini əhatə edir.

Ekspertlərin apardığı qiymətləndirmələr əsasında yaradılan Strateji Yol Xəritəsində Azərbaycanda mövcud qeyri-neft iqtisadiyyatının mövcud vəziyyətini, habelə qlobal miqyaslı və ya lokal trendlərin hər biri nəzərə tutulmuşdur.

Xüsusi qeyd etmək lazımdır ki, bu inkişaf proqramı əsasında həyata keçirilən bütün məqsədlərin əsasında yeni iş yerlərinin yaradılması, əhali məşğulluğunun təmin edilməsi, hər bir vətəndaşın mənzil təminatlılığının, təhsil və səhiyyə xidmətlərinin, kommunal xidmətlərin və bütün ünvanlı sosial yardımların sistemindən reabilitasiya ilə yoxsulluq səviyyəsinin azaldılmasına şərait yaratmış olacaqdır. Qeyri-neft sektoru yeni iş yerlərinin açılmasında həlledici rola malikdir. Qeyri-neft sektorunun inkişafı həm iqtisadi, həm də sosial inkişafa öz müsbət töfhəsini verir.

Bugünkü dövrün tələbi olaraq qeyri-neft sektorunun inkişafının təmin edilməsi hər zaman diqqət mərkəzində olmasına yönəlir. Ölkə üzrə regionların inkişafı, regional infrastrukturların yaradılmasına və digər layihələr reallaşdırılaraq həyata keçirilir. Regional sosial-iqtisadi inkişafın Dövlət Proqramı daxilində qeyri-neft sektorunun bir hissəsi kimi yol-magistral təsərrüfatınında inkişafını təmin

etmiş olur. Yolların yenidən rekonstruksiya olunaraq müasir körpülər salınaraq, tunellər tikilməkdədir. Regionlarımızda beynəlxalq statusa malik dörd hava limanı, bütövlükdə isə 6 hava limanı vətəndaşlarımızın istifadəsinə verilmişdir.

Ölkə üzrə regionlarda quşçuluq təsərrüfatının inkişaf etdirilməsi, heyvandarlığın və südçülüyün, həmçinin ət kəsiminin, onun emalı müəssisələrinə milyonlarla manat güzəştli kreditlər verilmişdir. Son illər ərzində ölkəmizdə maldarlığı stimullaşdıraraq ət və ət məhsullarının idxalının əhəmiyyətli dərəcədə azaldılmasına səbəb olmuşdur. Həmçinin bağçılığın, üzümçülüyün, istixana komplekslərinin təkmilləşdirilməsinə, meyvə-tərəvəz emalı müəssisələrinində milyonlarla manat güzəştli kreditlərin verilməsiylə onlarında stimullaşdırılmasına səbəb olmuşdur. Ölkə əhalisinin tələbatını yerli məhsullar ilə ödənilməsinə səbəb olmuşdur. Həmçinin məhsuldarlığın yüksəlməsiylə, ixrac potensialınıda yüksəldilməsinə səbəb olmuşdur. Sahibkarlığın inkişaf etdirilməsi üçün fermerlərə güzəştli kreditlər verilmişdir. Davamlı iqtisadi inkişafa nail olunmasında başlıca mövqeyi qeyri-neft sektoru tutur.

Azərbaycanda tükənən təbii sərvətlərlə zəngin iqtisadiyyatın şaxələndirilməsində qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirilərək böyük bir yer ayrılır. Qeyri-neft sektorunun davamlı iqtisadi inkişafın digər bir sahəsidə informasiya və kommunikasiya texnologiyalarının rolu olduqca böyükdür.

Qeyri-neft sektorunun bu gün sürətli inkişafı bütünlükdə iqtisadiyyatın inkişafına gətirib çıxarır. Ümumi daxili məhsulun 70 faizdən çox bir hissəsini təşkil edir. Azərbaycanın qarşısına qoyduğu əsas məqsəd ixracatı şdiversifikasıya etdirmək və ixraca yönələn qeyri-neft məhsullarının siyahısını genişləndirməkdən ibarətdir. Bütün bu istiqamətlərin hər birində real uğurlar əldə edilməkdədir. Ümumi daxili məhsulun strukturunu nəzərdən keçirdək. Bütün sahələr üzrə paylanma faizlərini aşağıdakı kimi nəzərdən keçirdək.

Azərbaycan dövləti iqtisadi inkişafı qeyri-neft sektorunun inkişafında görür və ölkə iqtisadiyyatının dayanıqlı inkişafını müəyyənləşdirən sahələrdə islahatlar həyata keçirir. Məhz məqsədyönlü siyasət sayəsində son illərdə Azərbaycanda

qeyri-neft sektorunun inkişafının neft sektorunun artım dinamikasından daha da yüksəlməsi olduqca təqdirəlayiq hesab olunur. Bu yüksəlişin davam etdirilməsi üçün səmərəli sahibkarlıq mühiti formalaşdırılmışdır. Ən başlıca şərtlərdən biri isə dövlət tərəfindən qeyri-neft sektoruna dəstəklərin daha da artırılması, stabil iqtisadiyyatımızın dayanıqlı inkişafına yönəldilməsini təşkil edir. Qeyri-neft sektorunun inkişafı ölkə əhalisinin rifahının yüksəlməsi, minimum yaşayış səbətinin yüksəlməsi deməkdir. Bu səbəbdəndə dövlət qeyri-neft sektorunun inkişafında olduqca maraqlıdır.

**Qrafik 1. Ümumi daxili məhsulun strukturu (2018-ci il)**




**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.
**Link:** www.stat.gov.az

Ölkə iqtisadiyyatının və onun artımın davamlılğının təmin olunması müasir dövr üçün ölkədə həyata keçirilən bütün iqtisadi siyasətlərin qarçısında duran mühüm problemlərdən birinə çevrilmişdir. Beləki, əhalinin həyat səviyyəsinin yüksəldilməsinin bir mənalı olaraq iqtisadiyyatın inkışafı ilə əlaqəlidir. Ölkədəki milli sərvətlərimizin artırılmasının hər biri iqtisadi yüksəlişin hesabına baş verir. İqtisadi artım gəlirlərin artışına, bu isə öz növbəsində əhalinin daha da yüksək istehlak səviyyəsinə və səbətinə malik olmalarına səbəb yaratmış olur. Məlumdur ki, istehlakın yüksəkliyi bir başa olaraq yüksək həyat səviyyəsi demək olmuş olur.

Ölkə iqtisadiyyatımız üzrə qeyri-neft sektorunun 46671.3 mln manatlıq yaradılmış olan əlavə dəyər, bu dəyərin 55.7%-i sosial xidmətlərə, ticarətə,

nəqliyyat vasitələrinin təmirinə və tikinti sahələrə və sair bölünmüşdür. Hesabat aparılan dövr ərzində ölkə iqtisadiyyatının qeyri-neft sahəsində yaradılmış olan bu əlavə dəyəri əvvəlki illə müqayisə edilərkən məlum olmuşdur ki, 1.8% artım var (economy.gov.az).

**Qrafik 2. Qeyri-neft sektorunda yaradılmış əlavə dəyərin sahələr üzrə bölgüsü**




**Mənbə:** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.
**Link:** www.economy.gov.az

Qeyri-neft sahəsində yaradılmış olan bu əlavə dəyər ümumi daxili məhsuldakı xüsusi çəkisini 58.5% təşkil etmiş olur. Qeyri-neft siyasətinin uğurla yerinə yetirilməsi ümumi daxili məhsulda öz əksini tapmış olur. Burada nəzərə çarpan sahələr arasında həmçinin anbar təsərrüfatı, tikinti, nəqliyyat, ticarət və nəqliyyat vasitələrinin təmiri sahələri və sair daxildir. Bu sahələri ümumiləşdirərək, hər birini öz pay faizləri ilə birlikdə təhlili aparılmışdır. Bu sahələr üzrə bölgünü aşağıdakı qrafik əsasında nəzərdən keçirdə bilərik:

### 2.3. İnvestisiyaların qeyri-neft sektorunun inkişafında əsas yeri və mövqeyi

Müasir dövrdə iqtisadiyyatın ən mühüm elementlərindən biri kimi investisiyalar və onların qoyuluşları çıxış edir. İnvestisiyalar pul və ya real kapitala qoyulmuş bir vəsaitədir. Yəni, investisiyalar pul vəsaitlərinə, kreditlərə, qiymətli kağızlara, daşınar həmçinin daşınmaz əmlaka, intellektual mülkiyyətə və sair

iqtisadi sahələrə qoyula bilən vəsaitlər kimi tanınır. Real kapitala qoyulmuş olan investisiyaların hər biri əsas kapitalın təkrar istehsalına və ya onun bərpa edilməsinə gətirib çıxarır (Hüseynov, 2009). İnvestisiya qoyuluşları subyektlər tərəfindən reallaşdırılır ki, bu öz növbəsində dövlət maraqlarının düzgün şəkildə reallaşdırılması üçün xidmət edir.

İnvestisiyalarının formalaşmasının zəruriliyini müxtəlif amillər şərtləndirə bilər (Allahverdiyev, 2003). Ümumilikdə həmin amilləri aşağıdakı üç əsas qrupa ayırmaq mümkündür:

mövcud maddi-texniki bazanın yenilənməsi;

istehsal fəaliyyəti sferasının genişləndirliməsi;

yeni fəaliyyət növlərinin mənimsənilməsi

Bu faktorlar ayrı-ayrılıqda spesifik xüsusiyyətlərə malik olmalarına baxmayaraq, nətəcədə onların istehsal fəaliyyətinin cəmiyyətdə artan təlabatın ödənilməsi istiqamətində proporsionallığın təmin olunmasına imkan yaradır. Ümumiyyətlə, geniş təkər istehsal münasibətləri sistemində investisiyalar mühüm struktur yaradan funksiyanı yerinə yetirir. Başqa sözlə, iqtisadiyyatın gələcək inkişafı onun hansı sahəsinə vəsait qoyuluşundan asılıdır. Belə ki, milli gəlirin yığım fondunu artırmaqla istehsalın gələcək artımı baş verir. Bu səbəbdən yaranmış olan investisiyaların hər birinin paylaşdırılması zamanı geniş təkrar isthsalın bir başa olaraq səmərəliliyini yaratmış olur. Bu zaman investisiyaların hər biri nə qədər səmərəlilidirsə, milli gəlirlərində artımı da o qədər yüksəkdir. Beləliklə, investisiya qoyuluşlarının bəzi əsasları ilə tanış olub, diqqət yetirməklə, həmdə onları ümumiləşdirməklə bu cür nəticəyə gəlmək olar ki, investisiya uzunmüddətli vəsait qoyuluşu olmaqla ölkə daxilində və onun xaricində mənfəət götürmək üçün yeni-yeni  müəsisələr yaradılmalı, həmçinin fəaliyyətdə olan müəssələrin modernləşdirilməsi, onların ən son texnologiyaların tətbiq edilməsinə yönəldilmiş fəaliyyəti xarakterizə edir.

Milli iqtisadiyyatın ayrı-ayrı sektorlarına qoyulmuş investisiyalar iqtisadiyyatımızın davamlı inkişafının əsas faktorlarından biri hesab olunur. Hazırki dövrdə investisiya mühitinin təhlili və qiymətləndirilməsi fundamental

elmi tədqiqatların obyekti hesab olunur. İnvestisiya mühitinin qiymətləndirilməsi prosesini ərazinin investisiya cəlbediciliyinin qiymətləndirilməsi kimi izah etmək olar. İqtisadi sistemlərin investisiya cəlbediciliyi qiymətləndirilən zaman regionun investisiya mühiti haqqında informasiya əldə etmək vacibdir. Əksər müəlliflərin rəyinə görə, investisiya mühitinin cəlbediciliyi adətən üç amildən: əlverişli investisiya-situasiya, iqtisadi sistemlərdəki investisiya iqlimi və investorlara əlavə gəlir gətirən müəyyən üstünlüklər olmasından asılıdır. Belə nəticəyə gəlmək olar ki, investisiya cəlbediciliyi investisiya fəaliyyəti subyektlərinə gəlir gətirən və kapital yatırımı riskini minimuma endirən əlverişli investisiya faktorlarının və üstünlükləri toplusudur. Aşağıdakı cədvəl 5-də fərqli ölçülərdə investisiya prosesi göstərilmişdir.

Cədvəldən də göründüyü kimi, investisiyalaşmanın müxtəlif səviyyələrinin adından fərqli investisiya fəaliyyəti subyektləri çıxış edə bilər və bu, özlüyündə onların investisiya fəallığının genişlənməsinin göstəricisidir. «İnvestisiya mühiti» anlayışı öz mürəkkəblik və bütövlüyü ilə seçilir və ona makro, mikro və mezo səviyyələrdə nəzər yetirilə bilər. Yekun olaraq, investisiya mühiti - investisiya obyektinin investisiya cəlbediciliyini təsirləndirən müxtəlif makro, mezo və mikro göstəricilər toplusudur. Burada investisiya obyekti kimi müxtəlif investisiya layihələri və müəssisə, təşkilat, şəhər, region, sahə, dövlət çıxış edə bilərlər. İnvestisiya mühitinin başqa bir hissəsi investisiya potensialı hesab oluna bilər ki, bu da müxtəlif resurslardan: xammal, sənaye, innovasiya, infrastruktur, qiymətli kağız, istehlak və əmək potensiallarından ibarətdir.

Respublikada investisiya potensialı kifayət qədər çox da olsa, əsasən, xarici investisiya fəaliyyəti subyektlərində investisiyalaşdırmanın perspektiv istiqamətləri haqqında yaranan fikir daha çox ehtiyatlı xarakterə malikdir. İnvestisiya mühitinin qiymətləndirilməsi zamanı istənilən investor əsasən daha çox gəlir əldə etmək, kapitalın sürətli dövriyyəsi, investisiya riskinin minimumlaşdırılması istiqamətində qiymətləndirmə aparır.

**Cədvəl 5. İnvestisiya prosesinin tərkib hissələri**

| Səviyyələr | İnvestisiyalaşma obyekti | İnvestorlar | İnvestisiya cəlbediciliyinin qiymətləndirilməsi |
|---|---|---|---|
| Mikrosəviyyə | -layihə<br>-müəssisə<br>-təşkilat | -fiziki şəxs<br>-hüquqi şəxs | -investor |
| Sahəvi səviyyə | -sahə müəssisəsi<br>-sahəvi layihələr<br>-sahə | -fiziki şəxs<br>-hüquqi şəxs<br>-dövlət | -investor<br>-sahə<br>-dövlət |
| Mezosəviyyə | -regionun müəssisəsi<br>-regional proqramlar | -dövlət hakimiyyətinin regiona orqanları<br>-maliyyə kredit şirkətləri<br>-özəl investorlar<br>-dövlət | -investor<br>-dövlət<br>-dövlət hakimiyyətinin ərazi orqanları |
| Makrosəviyyə | -milli layihə<br>-ümumdövlət layihəsi | -özəl investorlar<br>-investisiya fondları<br>-maliyyə kredit şirkətləri<br>-dövlət | -iri konsaltinq şirkətləri<br>-ixtisaslaşmış dövlət müəssisələri |

**Mənbə:** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin məlumatları əsasında müəllif tərəfindən tərtib olunub.
**Link:** www.economy.gov.az

İnvestisiya mühitinin qiymətləndirilməsi aparılar zaman bütün mövcud metodikalarda region və sahənin kəmiyyət və keyfiyyətcə iqtisadi potensialını göstərən göstəricilərdən istifadə olunur. Regionların investisiya potensialının qiymətləndirilməsi adətən üç aspektdən aparılır:

- Qanunvericilik aspekti - normativ bazasının qiymətləndirilməsi;
- Amil aspekti- investisiya potensialının ilkin amillərinin qiymətləndirilməsi;
- Təkrar qiymətləndirmə - investisiya potensialının tərkibinin təkrar qiymətləndirilməsi.

Qiymətləndirmə müəyyən zaman çərçivəsində statistik informasiyalara əsaslanaraq aparılır. Kateqoriyalar üzrə bütöv şəkildə qəbul edilən müqayisə bazası aşkar olunur. İnformasiyalar faktiki kəmiyyətdən asılı olaraq konkret əmsallara dönüşür. Ümumi potensial xarakteristika zamanı xüsusi göstəricilərin toplusu da nəzərə alınır. Burada əsas məlumatlar Dövlət Statistika Komitəsinin, İqtisadiyyat

Nazirliyi, Maliyyə Nazirliyi, Mərkəzi Bank və Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin verdiyi informasiyalar hesab olunur. Hər hansı bir sahənin investisiya potensialının qiymətləndirimәsini aparmaq üçün cədvəl 6-da göstərilən dəyərləndirmələrdən istifadə edilməsi məqsədə uyğundur:

Hər sahənin investisiya potensialı onun hazırkı vəziyyətini və investisiya resurslarını əldə etmək imkanları barəsində ümumi bir anlayış yaradır. Sahənin potensial imkanları nə qədər yüksəkdirsə, investisiya yatırımları buraya sürətlə daxil olur və uğurlu investisiyaların qoyulması mümkün ola bilir.

Müstəqillik əldə olunduqdan sonra Respublikamızın dayanıqlı sosial-iqtisadi inkişafı və ölkədə siyasi sabitliyi bərqərar edilmişdir. Bu siyasətin reallaşdırılmasıından sonra iqtisadiyyatın şaxələndirilməsi, özəl sektorun və regionların inkişaf tempi artmış, maliyyə resurslarının səmərəli şəkildə istifadə olunması təmin edilmişdir. Hökümətin təyin etdiyi strategiyaların reallaşdırılması sonrakı illər üçün də davamlı inkişafın güclü təməlinin yaradılmasına, ölkənin iqtisadiyyatının qlobal iqtisadi sistemə inteqrasiyasının sürətləndirilməsinə, insanların rifahının yaxşılaşdırılmasına şərait yaratmışdır.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyilə uzunmüddətli dövr üçün təyin olunmuş dayanıqlı sosial-iqtisadi inkişafa doğru gedən uğurlu siyasət Prezident İlham Əliyev tərəfindən modern şəraitə əsaslanmaqla davam etdirilməsi nəticəsində əvvəlki zamanlarda olduğu kimi, ölkəmiz sürətlə inkişaf etmiş, makroiqtisadi siyasi-iqtisadi sabitlik qorunması, saxlanmasına müvəffəq olunmuş, özəl sahələrin və regionların davamlı inkişafına nail olmaqla iqtisadiyyatın diversifikasiya tempi artmış, elmi-texniki bazaların formalaşması sahəsində əsaslı tədbirlər həyata keçirilmiş, qeyri-neft sektorunun inkişafı üçün əlverişli investisiya və rəqabət mühiti yaradılmış və insanların yaşayış səviyyələri yüksəlmişdir.

Mövcud resurslardan səmərəli istifadə etməklə aparılan uğurlu iqtisadi strategiya dövlətin inkişaf dəyərinin daha yüksək və yeni mərhələsinə doğru irəliləməsinə imkan yaratmışdır. Respublika iqtisadiyyatının inkişaf dinamikası bir çox beynəlxalq təşkilatların hesabatlarında yer almışdır.

**Cədvəl 6. İnvestisiya potensialının sahələr üzrə qiymətləndirilməsi**

| № | Göstərici adı | Hesablanmanın metodikası |
|---|---|---|
| | İstehsal potensialı | |
| 1 | İstehsalın fiziki həcminin indikatoru | Göstərici sahəsinə əsasən istehsal həcminin ÜDM-ə olan nisbəti şəklində müəyyən olunur |
| 2 | İstehsal həcmi üzrə artım tempi | Sahə üzrə istehsal həcmi dinamikası göstəricisi, cari ildə istehsal həcminin keçən ildəki istehsal həcminə nisbətilə hesablanır |
| 3 | Əsas fondların istifadə payı | Sahə üzrə istifadəyə verilən başlıca fondların ölkə iqtisadiyyatı üzrə əsas fondlara nisbətilə hesablanır |
| 4 | Yeni açılmış iş yerləri və onların xüsusi çəkisi | Sahə üzrə yeni açılmış iş yerləri sayının bütövlükdə ölkə iqtisadiyyatı üzrə açılan iş yerlərinə nisbətilə hesablanması |
| | Maliyyə potensialı | |
| 5 | Zərərlə işləyən müəssisələrin ümumi sayının xüsusi çəkisi | Sahədəki zərərlə işləyən müəssisələrin bütövlükdə ölkə üzrə mövcud zərərlə işləyən müəssisələrin sayına nisbəti |
| 6 | Sahə-qiymət indeksi | Təhlil olunan dövrdə qiymətin keçən ilin qiymət səviyyəsinə nisbət dinamikasını xarakterizə edən göstərici |
| | İnvestisiya potensialı | |
| 7 | İnvestisiyaların artım tempi | Cari ildə investisiya həcminin keçən ildəki investisiya həcminə nisbəti kimi hesablanır |
| 8 | Əsas kapitala investisiya struktur-indikatoru | Təhlil edilən il ərzində sahə üzrə kapitala investisiya strukturunu xarakterizə edən göstərici |
| | İxracın potensialı | |
| 9 | İxracın artım tempi | Cari ildə olan ixrac həcminin keçən ilin ixrac həcminə olan nisbəti |
| 10 | İxracın ümumi həcmi üzrə sahə ixracının payı | Göstərici-indikator sahə üzrə ixrac həcminin bütövlükdə ölkənin ixrac həcminə olan nisbəti kimi hesablanır |

**Mənbə:** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.
**Link:** www.economy.gov.az

Dünya İqtisadi Forumunun (DİF) 2016-2017cı il üçün "Qlobal rəqabət qabiliyyətliliyi ilə bağlı hesabatı"nda Azərbaycan 138 ölkə içərisində 4.6 reytinq meyarı ilə 37-ci yeri tutmuşdur, sözügedən sıralamada Portuqaliya və Polşa kimi nəhəng Avropa ölkələri də Azərbaycanımızla eyni yerdə qərarlaşmağa müvəffəq olub. Hesabatda verilmiş müəyyən qiymətləndirilmələr üzrə xüsusilə yaxşı nəticələr əldə olunmuşdur, buna nümunə olaraq, "makroiqtisadi sabitlik" göstəricisinə görə Azərbaycan dünya reytinq cədvəlində 39-cu, "əmək bazarı

səmərəliliyi” göstəricisinə görə 26-cı olmuşdur (“Doing Business” jurnalı, 2016 – 2017).

“Doing Business” hesabat-sənədində isə ölkəmiz 189 ölkə içərisində 80-ci pillədə qərarlaşmışdır. Hesabatın tərtib edildiyi 10 əlamətdən 4-ü üzrə ölkəmiz ümumi reytinqlərdə “ilk 35-liy”ə düşmüşdür. Bundan əlavə, “biznesə başlamaq” göstəricisi üzrə Azərbaycan dünya üzrə 12-ci, “əmlak qeydiyyatı” səviyyəsi üzrə 10-cu, “müqavilə icrası” göstəricisinə görə 31-ci, “vergi ödənməsi” dərəcəsinə görə 33-cü yeri tutmuşdur (Doing Business).

Həmçinin, ölkə iqtisadiyyatındakı mövcud durumu beynəlxalq reytinq agentliklərinin hesabtlarında yüksək qiymətləndirilmişdir. “Moody’s” Beynəlxalq Reytinq Agentliyi Azərbaycanın uzunmüddətli kredit reytinqinə əsasən göstəricisini “stabil” kimi dəyərləndirmişdir. “Standart & Poor’s” Reytinq Agentliyi ölkənin xarici və daxili iqtisadi-maliyyə imkanlarında uzunmüddətli davam eləyən kredit səviyyəsini isə yenidən “BB” kateqoriyası üzrə təsdiqləmişdir.

Başqa bir tərəfdən, “Fitch Ratings” Agentliyi ölkəmizin yerli və xarici maliyyə ehtiyyatlarında uzun zaman dilimini əhatə edən suveren və müstəqil investisiya göstəricisini “stabil” proqnozu ilə “BBB” kateqoriyasında saxlamışdır (Doing Business).

Son zamanlarda reallaşdırılan məqsədyönümlü strategiya və aparılmış tədbirlər nəticəsində, ölkəmizdə son 10 ildə ÜDM istehsalı real ifadə baxımından 3.5 dəfə, habelə, sənaye istehsalının ümumi səviyyəsi 2.8, aqrar təsərrüfatı məhsulları 1.7, tikinti sahəsi 4.9, nəqliyyat sektoru 2.8, rabitə və informasiya sahəsi 8.3, ticarət isə 3.4 dəfə artmışdır. 2005-2015-ci illərdə adambaşına düşən ÜDM istehsalı üzrə 3 dəfə artım müşahidə edilmişdir. 2015-ci ildə ÜDM dinamikası 3% və ötən ilki qiymətlərlə 59.0 mlrd. manat təşkil etmişdir. Hər bir nəfərə düşən ÜDM səviyyəsi 6273.5 manat (7998.9 ABŞ dolları) olmuşdur (stat.gov.az).

Milli iqtisadiyyatda investisiya mühitinin yaxşılaşdırılması və investisiya cəlb olunmasının artırılması üçün dövlət tərəfindən çoxlu sayda addımlar atılır. Bu addımlar daxilində “açıq qapı” (“open door”) siyasəti daha prioritetli və

məqsədyönümlü sayılır. Bu siyasətlə bərabər, investisiya sahəsində xeyli norma və qanunlar qəbul edilmişdir.

**Şəkil 3. Global competitiveness index**



Azerbaijan 37th / 138

Global Competitiveness Index 2016-2017 edition

Key Indicators, 2015 Source: International Monetary Fund; World Economic Outlook Database (April 2016)

| | | | |
|---|---|---|---|
| **Population** (millions) | 9.4 | **GDP per capita** (US$) | 5739.4 |
| **GDP** (US$ billions) | 54.0 | **GDP (PPP)** % world GDP | 0.15 |

Performance overview

| | Rank / 138 | Score (1-7) |
|---|---|---|
| Global Competitiveness Index | 37 | 4.6 |
| Subindex A: Basic requirements | 49 | 4.9 |
| 1st pillar: Institutions | 48 | 4.2 |
| 2nd pillar: Infrastructure | 55 | 4.3 |
| 3rd pillar: Macroeconomic environment | 39 | 5.2 |
| 4th pillar: Health and primary education | 75 | 5.7 |
| Subindex B: Efficiency enhancers | 59 | 4.2 |
| 5th pillar: Higher education and training | 78 | 4.2 |
| 6th pillar: Goods market efficiency | 50 | 4.5 |
| 7th pillar: Labor market efficiency | 26 | 4.8 |
| 8th pillar: Financial market development | 97 | 3.5 |
| 9th pillar: Technological readiness | 55 | 4.5 |
| 10th pillar: Market size | 63 | 3.9 |
| Subindex C: Innovation and sophistication factors | 49 | 3.8 |
| 11th pillar: Business sophistication | 60 | 4.0 |
| 12th pillar: Innovation | 44 | 3.6 |

| Edition | 2012-13 | 2013-14 | 2014-15 | 2015-16 | 2016-17 |
|---|---|---|---|---|---|
| Rank | 46 / 144 | 39 / 148 | 38 / 144 | 40 / 140 | 37 / 138 |
| Score | 4.4 | 4.5 | 4.5 | 4.5 | 4.6 |



**Mənbə:** Dünya İqtisadi forumu

Aparılan bəlli islahatlar investisiya mühitinin yaxşılaşdırılmasına, iqtisadiyyatın çoxşaxəli inkişafına, neft sektorundan iqtisadi asılığın azadılmasına yönəlmişdir. Həmçinin, ölkəmizdə sərmayəçilərə əlverişli mühitin yaradılması və onlara məxsusi güzəştlərin göstərilməsi üçün münbit şərait yaradılır. İnvestorların xüsusi güzəştləri deyildikdə, onların mənafe və hüquqlarının qorunması, rəqabətqabiliyyətli mühitlərin təşkili, xarici və yerli investorlara bərabərhüquqlu və səmərəli mühitin yaradılması və s. daxildir.

Qeyri-neft sektoru üzrə investisiya fəallığının nəticəsi olaraq iqtisadiyyatın yüksələn sürətlə inkişafının səmərəli təşkil edilməsini və onların ümumilikdə əlverişli mühit formalaşdırmasını təmin etməlidir. Sadəcə tələb qarşısında belə bir mühiti formalaşdırmaq yolu ilə qarşıya qoyulan məqsədlərin reallaşdırılması mümkündür.

Sahibkarlığın inkişafı şəraitində investisiya fəallığına təsir edən amillərin öyrənilməsi vacib şərtlərdən biridir. İnvestisiya fəallığı xərclərin səviyyəsi ilə əlaqədardır. Həmin amillərdən ikisi:

- investisiya xərcləri sayəsində sahibkarın əldə edə biləcəyi xalis mənfəətin norması;
- faiz dərəcəsi daha böyük əhəmiyyət kəsb edir.

Qeyri-neft sektoru üzrə ivestisiya qoyuluşlarının xərcinin həcmini şərtləndirən digər önəmli amillərdən kreditə görə ödənilmiş olan real faiz dərəcəsi hesab olunur. Qeyri-neft sektoru üzrə real kapitalın cəlb olunması üçün təsərrüfat sahələrində lazımı miqdarda maliyyə vəsaiti həmişə mövcud olmuş olmur. Belə bir halda kənardan borc götürülməsi ehtiyacı duyulur və həmin vəsaitə görə ödənilən faizlərin məbləği investisiyanın reallaşdırılmasına birbaşa təsir göstərmiş olur. Buradakı, investisiya qoyuluşlarından gözlənilən gəlir götürülmüş kreditlərə görə ödənilməli olan faiz dərəcələrindən çox olarsa, o zaman obyektə qoyulan investisiya səmərəli hesab olunmuş olur. Qeyd edək ki, bazar münasibətlərində mövcud götürülmüş olan kreditlərə ödənilən hər bir real faiz dərəcələri investisiya qoyuluşuna dair qərar qəbulu zamanı həlledici rol oynayır.

Beləki, qeyri-neft sektoru üzrə investisiya qoyuluşundakı ən mühüm amil kimi gözlənilən mənfəətin həcmi borc alınan vəsaitə görə ödənilən faiz dərəcəsi kimi hesab olunur. Göstərilən amillər ilə bərabər olaraq, digər müxtəlif amillərdə mövcuddur ki, həmin bu amillər də investisiya kimi qoyulmuşların həcmindən asılı olmamaqla formalaşır, lakin buaradaı əsas məsələ onun investisiya qoyuluşlarına olan tələbı formalaşdırmasıdır. Bunlara aşağıdakıları aid etmək olar:

əsas fondun əldə olunmasına,

mövcud fondların istismarına,

bütün xidmət sahələrində mövcud xərclər;

qeyri-neft sektoru üzrə sahibkarların ödədikləri bütün vergilər;

qeyri-neft sektoru üzrə innovasion dəyişikliklər;

formalaşdırılan əsas kapital;

sahibkar fəaliyyətlərinin gələcək inkişaf proqnozları.

Əsas fondların formalaşdırılması, onların istismarları və onlara xidmət göstərilməsi ilə bağlı xərclərin artımı investisiya qoyuluşundan gözlənilən xalis mənfəətin həcminin azalmağına və ya əksinə səbəb ola bilər.

Qloballaşan dünyada inkişaf etmiş müəssisələr tərəfindən təklif olunan texniki resursların əsas fondların qiymətləri özünün formalaşma dövrünü keçirən yerli istehsalçılar üçün olduqca çoxdur; ölkəmizdə bu texniki resursları istehsal edən infrastruktur sahələri təəssüf ki, inkişaf etməmişdir.

Ölkəmizdə həyata keçirilən siyasət nəticəsində qiymətlər "sərbəstləşdirilir" və ya bazaar şəraitinə uyğunlaşdırılır, bundan sonra qeyri-neft sektoru məhsullarının qiymətlərinin sözügedən sektor üzrə istifadə olunan sənaye istehsal vasitələrinin hər birinin ümumi qiymətlərinin arasında formalaşmış uyğunsuzluq, onun əsas fondlara investisiya qoyuluşunu lap çətinləşdirmişdir (Allahverdiyev, 2003).

İnvestisiyaya dair qərarların qəbuluna təsir göstərən amillər içərisində sahibkarlardan və məhsul istehsalçılarından tutulan vergi növləri, sayları və onların dərəcəsi çox mühüm rol oynayır. Vergilərin sayının hədsiz olması və vergi dərəcələrinin yüksək olması sahibkarlıq fəaliyyətinə mənfi təsir edir və bununlada

geniş təkrar istehsalın imkanları olduqca məhdudlaşdırılır və ya bu proses tam olaraq əksinə olaraq baş verir. Vergilərin daha aşağı dərəcəsinin müəyyənləşdirilməsi, onların dərəcələrinin optimallığının cəmiyyətin hər bir fərdinin maddi rifahının yüksəldilməsinə və ya ayrı-ayrı təbəqələrin gəlirlər səbətinin tarazlaşdırılmasına gətirib çıxarır. Həmçinin, qeyd olunmalıdır ki, büdcə vasitəsi ilə maliyyələşdirilən investisiyaların reallaşdırılmasına imkan da yaradılmış olur.

Qeyri-neft sənayesi üzrə yerli məhsul istehsalçılarından müxtəlif adlarda vergilər və ödəmələr tələb olunur. Bununla onların maliyyə nəticələrinə hiss olunacaq dərəcədə mənfi təsir göstərmək baş verir və istehsalın zərərlə başa gəlməsini şərtləndirən başlıca amil kimi məhz bu çıxış edir. Qeyri-neft sektoru üzrə yerli istehsalçılar üçün tətbiq olunan vergilər istehsal prosesini tənzimləmə və iqtisadiyyatın ayrı-ayrı sahələri arasında mütənasib inkişaf prosesini təmin edən vəsaitdən daha çox büdcəni hər cəhdlə "doldurmağa" xidmət etmişdir. Bu isə özlüyündə yerli məhsul istehsalına çəkilən xərclərin artmasına səbəb olmaqla, istehsalçıların öz vəsaitləri hesabına investisiya qoyuluşlarını həyata keçirmələri zamanı ciddi maneəyə çevrilmişdir.

Qeyri-neft sənayesinin inkişafını stimullaşdırmaq üçün investisiya fəallığını stimullaşdıran amillər sırasında texnoloji dəyişikliklər də qeyd olunmalıdır. Bu zaman əsas istiqamət məhsuldar əsas kapitalın tətbiqi istehsal xərclərini azaldılmasına, əsas kapitala investisiya qoyuluşundan çoxlu xalis gəlir əldə edilməsinə imkan verir.

Ümumilikdə, tətbiq olunduğu istehsal sahəsindən asılı olmayaraq, qeyri-neft sektorunun texniki baxımndan təkmilləşdirilməsi nailiyyətləri investisiya fəallığının genişləndirilməsinə səbəb olur.

Əsas kapitalın mövcudluğu özü də qeyri-neft sektoru üzrə investisiya fəallığını şərtləndirən amillər sırasında yer alır. Müəssisə daxilində də istehsal sahəsində zəruri tərkib və nisbətdə əsas fondların mövcudluğu həmin müəssisə və ya istehsal sahəsində əsas fondlara qoyulan investisiyanı yaləngidir, ya da bu proses əksinə baş verməli olur.

Bazar iqtisadiyyatının davamlı və dayanıqlı olaraq inkişafa istiqamətlənməsi nəticəsi olaraq, dövlət tərəfində bu iqtisadi proseslərə müdaxiləsini nisbətən məhdudlaşdırılmış olur, amma bəzi hallarda dövlət öz müdaxiləsini mütləq edir ki, iqtisadi mexanizmlər düzgün tənzimlənə bilsin. Bu prosesin daha da yaxşılaşdırılmasının təmin edilməsi üçün öz növbəsində məqsədyönlü strategiyalar hazırlanması və tətbiq edilməsi olduqca əhəmiyyətli hesab edilir.

# III Fəsil BÜDCƏ GƏLİRLƏRİ QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAF PRİORİTETLƏRİ KİMİ

## 3.1. Qeyri-neft sektorunun inkişaf dinamikasında rəqabətqabiliyyətlilik amili

Milli iqtisadiyyatın rəqabətqabilliyyətliyi təkmilləşdirilməsi bütünlükdə mlli iqtisadiyyatın inkişafının əsasını təşkil edir. Rəqabətqabiliyyətliliyi öz spesifikliyi ilə birlikdə milli iqtisadiyytaın qeyri-neft sektorundakı mövqeyini müəyyən edir. Qeyri-neft sektoru və ümumilikdə iqtisadiyyat üzrə rəqabət qabiliyyətliliyini müəyyənləşdirən bir neçə növü vardır. Onların təhlil edilməsi ilə rəqabətqabiliyyətliliyi xüsusiyyətləri müəyyən edilmiş olur. Bunlar aşağıdakılardır:

- Rəqabətqabiliyyətliliyin nisbilik göstəricisi

Rəqabətqabiliyyətliliyin nisbiliyi dedikdə rəqabətqabiliyyətliliyin hər hansı bir obyektinin göstəricilərinin digər bir rəqib obyektinin göstəricilərinə olan nisbəti zamanı yaranan prosesi əhatə edir. Rəqiblər arasında olan münasibəti və onların göstəricilərini müqayisə etməsək biz  rəqabətqabiliyyətliliyin qeyri-neft sektoru üzrə hər hansısa yekun nəticəsini deyə bilmərik. Nisbilik dedikdə burada hər hansısa müəssisənin rəqabət qabiliyyətliliyinin nəticəsində yaranmış olan rəqabət konsepsiyasını formalaşdıran ən əsas xüsusiyyətlərindəndir. Elə bu səbəbdəndə qeyri-neft sektoru üzrə rəqabətqabiliyyətliliyi bir neçə göstəricilər üzrə fərqləndirirlər. Bura rəqabət qabiliyətliliyinin effektivliyi, keyfiyyəti, məhsuldarlığı,  inkişaf tempini və sair müəssisə daxili sahibkarlıq nəticəsində meydana gələn göstəriciləri aid edə bilərik.

- Rəqabətqabiliyyətliliyin şərtilik göstəricisi

Rəqabətqabiliyyətliliyin müəyyən məhsul qrupu üçün konkret bazarda və rəqiblərdən asılı olaraq formalaşdığını ifadə edir. Müxtəlif bazarlarda fəaliyyət göstərən müəssisələr rəqib hesab oluna bilməz çünki onların göstəricilərini bir-birindən fərqləndir və onların müqayisəli təhlilini aparmaq üçün ortaq fəaliyyət sferası mövcuddur deyildir.

- Rəqabətqabiliyyətliliyin obyektivlik göstəricisi

Obyektivlik dedikdə rəqabətqabiliyyətliliyin bütün subyektiv nəticələrin məcmusunu nəzərdə tutmur çünki, burada hər hansısa müəssisənin, onun sahəsinin immanent, obyektiv xüsusiyyətlərini əks etdirir.

- Rəqabətqabiliyyətliliyin dinamiklik göstəricisi

Dinamiklik rəqabət qabiliyyətinin zaman ilə mövcud qarşılıqlı əlaqəsini bildirmiş olur. Beləki, bunu müəyyən zaman periodu üçün və ya müəyyən tarix üçün göstərilməsi mümkündür.

Həmçinin rəqabətqabilliyyətliliyinin özünəməxsus spesifik səviyyələri mövcuddur. Bu səviyyələr vasitəsilə milli iqtisadiyyatın inkişaf səviyyələrini təkmilləşdirmək mümdür (Ж. Вальтер, 2004). Rəqabətqabilliyyətlilik səviyyəsini aşağıdakı cədvəldən nəzərdən keçirdək:

**Şəkil 4. Rəqabətqabiliyyətlilik səviyyəsinin xarakteristikası**

| RƏQABƏT QABILIYYƏTLILIK SƏVIYYƏSI | RƏQABƏTQABILIYYƏTLILIYIN OBYEKTI YAXUD SUBYEKTI | RƏQABƏTQABILIYYƏTLILIYIN BƏZI AMILLƏRI |
|---|---|---|
| Məhsul | Mallar (iş,xidmətlər) | □ □ Məhsulun keyfiyyəti, müvafiq norma və standartlara uyğunluğu<br>□ □ Qiymət□<br>□ □ İstehlakçı tələbinə uyğunluğu |
| Mikro səviyyə | Müəssisələr | □ □ Məhsulun müqayisəli rəqabətqabiliyyətliliyi<br>□ □ Istehsal fəaliyyətinin effektivliyi<br>□ □ Fəaliyyətin maliyyə göstəriciləri<br>□ □ Məhsulun bazarda satışının və təşkilinin effektivliyi və onun payı |
| Mezo səviyyə | Müəssisə birlikləri, sahələr | □ □ Sahənin daxili strukturu□<br>□ □ Xarici mühitin təsiri<br>□ □ Sahənin strukturuna daxil olan ayrı-ayrı elementlərin rəqabətqabiliyyətliliyi<br>□ □ Sistemin elementləri arasında qarşılıqlı təsir |
| Makro səviyyə | Bütövlükdə ölkə iqtisadiyyatı | □ □ Investisiya mühiti□<br>□ □ Elmi-texniki inkişaf səviyyəsi<br>□ □ Sənayenin və bütövlükdə iqtisadiyyat sahələrinin rəqabətqabiliyyətliliyi |

**Mənbə:** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.
**Link:** www.economy.gov.az

Rəqabətliliyin bütün növləri və səviyyələri qarşılıqlı və sıx münasibətlərdə olaraq beynəlxalq və daxili rəqabətin stimullaşdırılmasında və ya formalaşdırılmasında başlıca mövqeyi tutur.

Dünya ölkələrinin qarşısındakı ən mühüm prespektivli mövqelərdən biri dünya iqtisadiyyatında rəqabətqabiliyyətliyinin tənzimlənməsindən ibarətdir. Mövcud iqtisadi bazarda rəqabətliliyin harada zəif və güclü olduğunu müəyyənləşdirərək özünün rəqabət siyasətinə və qanunvericiliyinə müvafiq tənzimləmələri əlavə etməkdir. Bunlara nail olaraq bir çox iqtisadi və sosial problemlərin həllinə gətirib çıxaran mexanizm yaradılmış olur.

Milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin təkmilləşdirilməsi prosesi daim diqqət mərkəzində saxlanılan bir amildirdir. Rəqabət qabiliyyəti nəqədər yüksək olarsa, milli iqtisadiyyatın inkişaf səviyyəsi bir oqədər yüksə olacaqdır. Bu istiqamətdə dövlətin iqtisadi mühiti təkmilləşdirmə mexanizmi meydana gəlir.

Rəqabətə əsaslanan azad bazar mexanizmləri ilə formalaşan iqtisadiyyatın inkişafında, bazar subyektləri arasındakı münasibətlərin tənzimlənməsində dövlətin rolu mühüm məhəmiyyət kəsb edir. Bunların hamısını ümumiləşdirib belə qənaətə gələ bilərik ki, çatışmazlıqların hər birinin həll edilməsi ilə olduqca güclü rəqabətə nail ola bilərik. Belə bir nəticələrə səbəb olduğundan dövlətin tənzimləyici funksiyası əvəzsizdir.

Azərbaycan iqtisadiyyatı üçün Dünya İqtisadi Forumun indeks göstəricilərinin dinamikası ilə rəqabət qabiliyyətinin qorunmasının vacib olduğu göstərilir. Ölkəmizdə innovasiyalı iqtisadiyyatın tətbiqi mexanizmləri daha da təkmilləşdirilərək böyük üstünlüklərə keçmək və bununlada milli iqtisdiyyatın mühafizəsini təmin edilməsi imkanları dəyərləndirilir.

Beləliklə, Dünya İqtisadi Forumun reytinq göstəricilərindəki üstün mövqeyimiz təkcə makroiqtisadi göstəricilərə görə deyil, bütünlükdə iqtisadi siyasət nəticəsində nail olunmuşdur. Ölkəmizin innovasiyalı iqtisadiyyatının keyfiyyətli üstünlüyü ilə hər bir görülən tədbirlər sistemi nəticəsində həyata keçirilir. Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinə təsir göstərən hər bir

faktorların ancaq nizamlı və kompleks şəkildə həyata keçirilməsi ilə bu nailiyyətləri qazanmış oluruq.

DİF-nin Qlobal Rəqabət İndeksi 2016-2017-ci illərdə Azərbaycan iqtisadiyyatının bütün sahələri üzrə güclü inkişaf müşahidə edildiyini, ölkənin çox büyük fərqlərlə dünya ölkələri arasında öz mövqeyini tutduğunu göstərir (Dünya İqtisadi Forumu).

Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyin müəyyənləşdirilməsi və onun inkişafının təkmilləşdirilməsi məqsədi ilə bir çox iqtisadi göstəricilərdən istifadə olunur. Bu göstəricilər bütünlükdə ölkə iqtisadiyyatının inkişafını özündə əks etdirən mühüm göstəricilərdir. Onlar nə qədər artması ölkəmizin dünya ölkələri arasındakı inkişaf mövqeyini göstərmiş olur.

Hər bir ölkə öz iqtisadi bazarının gücünə görə fərqlənir. Beləki, ölkə iqtisadiyyatının bazarının həcmi ümüumi istehsalın gücünə təsir edir. Yəni, geniş bazarlarda müəssisələr iqtisadiyyatın ən yüksək həcimdə imkanlarından istifadə edirlər. Ənənəvi iqtisadiyyat dövründə müəssisələrin fəaliyyət dairələri onların bazarlarda yerləşdiyi ölkələrin sərhədləri ilə məhdudlaşırdı. Qloballaşan iqtisadiyyat dövründə isə beynəlxalq bazarlar daxili bazarların əvəzləyicisi rolunu oynamağa başlayır. Bu göstəricilərin səviyyəsinə görə Azərbaycan dünya ölkələri arasında 63-cü yerdə cəmləşmişdir (The Global Competitiveness Report 2016–2017).

Ölkə iqtisadiyyatının bazarının həcmi, ümumi istehsalın gücü, subyektlərin çoxluğu makroiqtisadi sabitlikdən birbaşa asılıdır. Beynəlxalq bazarlara çıxışın olması iqtisadiyyatın ən yüksək həcimdə imkanlarından istifadə edirlər. Makroiqtisadi sabitlik investisiya qoyuluşu və sahibkarlıq üçün olduqca mühüm şərtdir. Ölkənin makroiqtisadi sabitliyi rəqabətə davamlıq üçün mühüm önəm daşıyır. Bu göstərici üzrə Azərbaycan dünya ölkələri arasında 39-cu yer tutur, həmçinin bir neçə MDB ölkələrini geridə qoyur (The Global Competitiveness Report 2016–2017).

Ölkə iqtisadiyyatında infrastrukturun yeniləşdirilməsi, inkişafı mühüm amil kimi baxılır. Milli iqtisadiyyatda infrastrukturun mövcudluğu və onun səmərəliliyi əhəmiyyətlidir.

**Şəkil 5. Daxili bazarın ölçüsü 2016-2017-ci illər**

| | YER | BAL |
|---|---|---|
| AZƏRBAYCAN | 63 | 3.89 |
| ERMƏNİSTAN | 120 | 2.68 |
| QAZAXISTAN | 45 | 4.47 |
| MOLDOVA | 124 | 2.56 |
| RUSİYA | 6 | 5.90 |
| TACİKİSTAN | 122 | 2.59 |
| UKRAYNA | 47 | 4.40 |
| LATVİYA | 96 | 3.15 |

**Mənbə:** The Global Competitiveness Report 2016–2017

**Şəkil 6. Makroiqtisadi sabitlik 2016-2017-ci illər**

| | YER | BAL |
|---|---|---|
| AZƏRBAYCAN | 39 | 5.24 |
| ERMƏNISTAN | 88 | 4.31 |
| QAZAXISTAN | 69 | 4.65 |
| MOLDOVA | 100 | 4.14 |
| RUSIYA | 91 | 4.30 |
| TACIKISTAN | 89 | 4.31 |
| UKRAYNA | 128 | 3.17 |
| LATVIYA | 24 | 5.56 |

**Mənbə**: The Global Competitiveness report 2016-2017

Yüksək səviyyəli infrastruktur bölgələrin inteqrasiyasını gücləndirir, bir neçə regionun və ya bir ölkənin bazarlarının digər ölkələrin bazarı ilə inteqrasiyasına güclü təkan verir. Bu istiqamət üzrə 2016-2017-ci illərdə Azərbaycan dünya ölkələri arasında 55-ci yerdədir. Azərbaycan bu göstərici üzrə MDB ölkələri arasında üçüncü yerdədir (The Global Competitiveness Report 2016–2017).

**Şəkil 7. İnfrastruktur 2016-2017-ci illər**

| | YER | BAL |
|---|---|---|
| **AZƏRBAYCAN** | 55 | 4.30 |
| **ERMƏNISTAN** | 82 | 3.77 |
| **QAZAXISTAN** | 63 | 4.19 |
| **MOLDOVA** | 86 | 3.64 |
| **RUSIYA** | 35 | 4.87 |
| **TACIKISTAN** | 103 | 3.20 |
| **UKRAYNA** | 75 | 3.93 |
| **LATVIYA** | 51 | 4.38 |

**Mənbə**: The Global Competitiveness report 2016-2017

Qeyri-neft sektoru üzrə reqabətqabiliyyətliliyi öz növbəsində birbaşa davamlı iqtisadi inkişafla qarşılıqlı surətdə əlaqədədir. Davamlı iqtisadi inkişaf müasir dövrdə bütün bu tələbatları qarşılamaqla bərabər gələcək nəsillərin də öz tələbatlarını qarşılamaq üçün bir inkişaf konsepsiyasıdır. Davamlı iqtisadi inkişaf ölkə iqtisadiyyatının elə bir tarazlıq vəziyyətidir ki, onu təmin etməklə inkişafı təmin etmiş oluruq. Qeyri-neft sektorunun davamlı iqtisadi inkişafını təmin etmək üçün iqtisadiyyatın məhdud təbii resurslar daxilində insanların və müəssisələrin davranışlarını öyrənən elm sahəsi kimi müəyyən edilir. Davamlılıq və iqtisadi

sistemlərin xarici təsirlərin təzahürü nəticəsində hazırki vəziyyətini saxlamış və neqativ təsirlərə dayanıqlılıq göstərə bilmək bacarığına malikdir. Davamlı iqtisadi inkişaf dedikdə bir-biri ilə qarşılıqlı surətdə əlaqədə olan bir neçə anlayışları özündə birləşdirir. Bunlar aşağıdakı kimidir:

- Davamlı iqtisadi inkişafın tələbat anlayışı

Bu anlayış əhalinin müəyyən yoxsulluq təbəqəsinin mövcud olmasıdır və bu olduqca vacib haldır.

- Davamlı iqtisadi inkişafın məhdudlaşdırma anlayışı

Bura innovasiyon texnologiyaların yeniləşmiş vəziyyəti və cəmiyyətin təşkil edilməsi ilə əlaqədardır. Davamlı iqtisadi inkişafın əsas vəzifələri insanın istəyi və tələbatlarının ödənilməsi ilə şərtlənir. Davamlı inkişaf cəmiyyət üzvlərinin bərabər səviyyələrdə ən zəruri tələbatlarının ödənilməsinin əsasını özündə birləşdirir.

Ölkə iqtisadiyyatının rəqabət qabiliyyətliliyinin artım amilindən biri ölkəmizin müasir infrastrukturlarının yaradılmasının əsas tərkib hissəsidir. Eyni zamanda vergi sistemləri və onun dövlət tərəfindən tənzimləməsinin mühüm amili kimi çıxış edir. Davamlı və dayanıqlı iqtisadi inkişafın təkmilləşdirilməsinin əsasını qoyur.

Ölkə iqtisadiyyatı üzrə mövcud xarici borcların olması, əsasəndə qısamüddətli kreditlərin verilməsinin artmasıyla makroiqtisadi sabitliyin davamlılığını azaldılmasına, inflyasiyanın və ixrac potensialının rəqabətqabiliyyətliliyinin aşağı enməsinə səbəb olur.

Müasir dövrdə hər bir maliyyə böhrana baxsaq görə bilərik ki, bu zaman bütün maliyyə mərhələlərinin öz-özlüyündə innovasiyanın inkişafı üçün müəyyən platforma yaratmış olur. Yeni bir dövrə uyğunlaşmış vəziyyətdə iqtisadiyyatın kəmiyyət və keyfiyyətin yeni səviyyəyə yaratmış olur.

Müəyyən zaman kəsiyi ərzində böhran vəziyyətində müəssisə üçün elə şərait yaranır ki, süni şəkildə innovasiyalardan istifadə edilməsi vacib olur. Bu səbəblədə keyfiyyətcə yeni səviyyənin yaranması üçün böhranın yaranması şərt olur. Belə bir şərait yaranan kimi innovasiyaları tətbiq etmək üçün investisiya qoyuluşları meydana gəlməsinə ehtiyac duyulur. Bununlada iqtisadiyyata investisiya

qoyuluşlarını cəlb etmək üçün əlverişli şərait yaradılır. Qeyri-neft sektorunun inkişafını təmin etmək üçün dövlətdə öz dəstəyini əsirgəmir. Qeyri-neft iqtisadiyyatının inkişafını təmin etmək üçün bu sektora xüsusi kapitalların cəlb edilməsinin əsası qoyulur.

Bütün təcrübələr göstərir ki, iqtisadiyyatın innovasiyalı işləməyiylə bir çox müəssisələr böhranlara daha da davamlı olur. Qeyd etmək lazımdır ki, 2008-ci ilin böhran mərhələsini öz gücünü saxlamaqla 42 faizdən çox müəssisələr çıxmağa çalışmışdır. Buradakı əsas məqam innovasiyalı texnologiyaların tətbiq edilmə ilə nail ola bilmişdilər.

## 3.2. Dövlət tərəfindən stimullaşdırılan büdcə gəlirlərinin qeyri-neft sektorunun inkişafında rolu

Müasir iqtisadi şərait daxilində büdcə gəlirləri ölkə iqtisadiyyatının davamlı və dinamik inkişafını, onun davamlılığını xarakterizə edən alətlərindəndir. Mövcud şəraitdə büdcə gəlirlərini ümumi gəlirlər bucağından çıxış edərək geniş makroiqtisadi mövqedən nəzər yetirilməsi problemi yaranır. Büdcə gəlirləri bir amil kimi idarə etmə obyekti kimi çıxış edir. olmalıdır. Bu baxımdanda məqsədyönlü şəkildə üsul və vasitələrdən təsir etmə mexanizmi kimi istifadə edilmiş olur. Bu təsiretmə vasitəsi kimi subyektiv, düşünülmüş fəaliyyətlər ilə bağlılığı bütün obyektiv iqtisadi fəaliyyətlərlə əlaqədardır.

Büdcə gəlirlərinin idarə olunması bir başa olaraq dövlət tərəfində stimullaşdırılmalıdır. Burada maliyyənin idarə olunması ən mühüm, həmçinin ən çətin hissələrdən biridir. Bu çətinliklərin hər biri aşağıdakılar ilə birbaşa bağlıdırlar, bunlara nəzər salaq:

- Büdcə gəlirlərinin idarə edilməsi dövlət gəlirlərinin bütünlükdə baş verən və verə biləcək problemləri əhatə etmiş olur
- Büdcə gəlirləri öz növbəsində bir-biri ilə əlaqəli olan maliyyə proseslərinə nüfuz etməyi qarşıya qoymuş olur
- Büdcə gəlirlərinə dövlət və müəssisələrin maliyyə sistemi ilə əlaqələndirilməsini əhatə etmiş olur

- Büdcə gəlirlərinin idarə olunması çox cəhətli qeyri-neft sektoru üzrə bütün sferalara sistemli yanaşmağı əhatə etmiş olur
- Büdcə gəlirlərinin stimullaşdırılmasında əsas mövqe onun planlaşdırılması, operativ şəkildə nəzarət edilməsi məsələlərinin daha da strateji əlaqələndirilməsini zəruri etmiş olur

Bazar iqtisadiyyatı şəraitində baş verən bir çox problemlərin həlli bazarın mexanizmləri vasitəsi ilə qeyri-mümkündür. Elə bu problemlərin həlli büdcə gəlirlərinin hesabına reallaşdırılmış olur. Büdcə gəlirləri iqtisadiyyatın hər bir sferası üzrə bütün inkişaf istiqamətlərini müəyyən edilməsində əsas mənbə kimi çıxış etmiş olur. Qeyri – neft sektorunun inkişafının təmin edilməsində büdcə gəlirlərinin rolu əvəzsiz hesab edilir. Qeyri – neft sektorunun inkişafı dedikdə bütünlükdə iqtisadiyyatın qeyri-neft sektoru üzrə olan nisbətən az inkişaf etmiş sferalarına büdcə gəlirləri əsasında dövlət tərəfindən stimullaşdırıcı dəstəyin göstərilməsiylə həmin sfralarında inkişafına nail olunmuş olur.

Qeyri-neft sektoru üzrə büdcə gəlirlərinə təsir edə biləcək bir çox amillər vardır. Ölkələrlə mövcud olan xarici iqtisadi əlaqələrin yaxşı olması büdcə gəlirlərinində artmasına səbəb olacaqdır. Siyasi sabitliyin olması iqtisadiyyatın inkişafına şərait yaradır. İqtisadiyyatın inkişaf etməsi büdcə gəlirlərinin artmasına səbəb olar. Öz növbəsində qiymətlərin yüksək olması büdcə gəlirlərinində çoxalmasına səbəb olur.

Bütövlükdə götürsək, büdcə gəlirlərinin strukturu olduqca dəyişkənliyi ilə seçilir. Beləki, həyat səviyyəsi yüksək olan bütün ölkələrdə büdcə gəlirlərinin böyük bir qismi fiziki şəxslərdən alınan vergilər hesabına, həyat səviyyəsi aşağı olanlarda isə dolayı vergilər və hüquqi şəxslərdən alınan vergilər vasitəsiylə təşkil edilir.

Dövlət büdcə gəlirləri ümumi büdcə sistemi və onun ayrı-ayrı həlqələri ilə qarşılıqlı əlaqədə olan sistemlərin demokratik və ədalətli bölgüsü dövlət quruculuğu prinsipləriylə həyata keçirilir.

**Diaqram 2. Əsas kapitala yönəldilmiş vəsaitlərin bölgüsü**




**Mənbə:** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.
**Link:** www.economy.gov.az

Beləki, bu gəlirləri büdcə həlqələrinin arasında bölüşdürülməsində bir neçə prinsiplər var ki, onlar əsas rolunu oynayır. Bunlar aşağıdakı kimidiir:

- Bir - bir ilə qarşılıqlı əlaqədə olan bu büdcələr müvafiq ərazi üzrə iqtisadi inkişafa uyğun formada artan gəlirlər hesabına təmin edilmiş olur
- Hər bir büdcənin mədaxili aid olduğu ərazinin iqtisadi inkişafından təsirlənir, bundan asılı olaraqda həmin gəlirlər hesabına formalaşması təmin edilmiş olur
- Mövcud il ərzində tədiyyələrin ardıcıl olaraq, həmçinin fasiləsiz olaraq daxil olması təmin olunmaqla
- Müəəssisələr üzrə kassa kəsirinin yaranmasının qarşısının alınmasını təmin olunmaqla
- Dövlət büdcəsi gəlirlərinin planının həyata keirilməsi üçün yerli hakimiyyət, həmçinin idarə orqanlarından büdcə gəlirlərinə olan məsuliyyət və maddi marağını artırmağın təmin edilməsi
- Ölkə üzrə gəlirlərin büdcələr arasındakı hər bir büdcənin xərcləri səviyyəsində maliyyə vəsaitləri ilə təmin edilmiş olmağı
- Ölkənin büdcə gəlirlərinin balanslaşdırılmasının təmin edilməsi

Respublikamız özünün büdcə siyasətini həyata keçirərkən ilk olaraq çalışır ki, büdcə gəlirləri hissəsini tədricən də olsa yerli mənbələr hesabına artırmış olsun. Bununlada büdcənin kəsirini azaldılmasına nail olanacaqdır. Büdcədə gəlirlərlə

xərclər arasındakı balans tarazlığı yaradılmış olacaqdır. Dövlətimiz bunu həyata keçirməklə büdcə kəsirinin ümumi daxili məhsula olan nisbətini azaldılmasına nail olacaqdır.

Qeyd edək ki, Azərbaycanın büdcə sisteminin təşkili və tənzimlənməsi dövlət tərəfindən nəzarət edilir. Buradakı əsas şərt bütün büdcə növləri üzrə müvafiq dövlət hakimiyyəti orqanlarının vəzifələrini maliyyə vəsaiti ilə təmin edilməlidir. Bu səbəbdəndə qanun ilə müəyyən olunmuş vergilər və ya hər hansı bir mədaxillər büdcə arasında elə paylanmalıdır ki, burada bütün büdcə həlqələri müstəqil gəlir mənbəyi ilə təmin edilə bilsin. Hər il ölkənin büdcə proqnozu mədaxil və məxaric üzrə müəyyən edilir və bütün büdcə həlqələrini, həmçinin yerli büdcələrin müstəqil gəlir mənbəyi də müəyyən edilməsini təmin etmiş olur. Gəlirlərin bölgüsü eyni zamanda xərclərin büdcələr arasında bölgüsü ilə əlaqəli şəkildə aparılır.

Ölkə büdcə siyasətini tam və dolğun həyata keçirməklə ilkin olaraq büdcən gəlirlərini yerli mənbələrin vasitəsi ilə artırmış olsun, digər bir tərəfdən büdcə kəsirini minimuma endirsin, gəlir ilə xərclərin arasında mövcud tarazlıq balansını qurmuş olsun. Dövləttərəfindən həyata keçirilən bu siyasət nəticəsində büdcə kəsirinin minimum göstəriciləri təmin edilməklə tarazlıq yaradılır və bunun nəticəsi olaraqda ümumi daxili məhsula olan nisbəti minimuma endirilir.

Qeyd edək ki, bu siyasət nə qədər uğurlu tətbiq edilməsədə, buradakı davanmayana iqtisadi fəaliyyət nəticəsində baş verən və ya baş verə biləcək olan problemlər daim yenisi ilə əvəz olunur. Bu özüdə bu sahənin nə qədər mürəkkəb olduğunu göstərir. Bu mürəkkəbliyi nəzərə alaraq dövlət neftdən asılılıq iqtisadiyyatını əksinə olaraq dəyişir və bütün qeyri-neft sahələrinin inkişafına, onların sosial-iqtisadi təminatında tənzimləyici rol oynayır. Beləki, neft staregiyasından daxil olan gəliri səmərəli şəkildə qeyri-neft sektoruna axınını təmin etməklə inkişafına nail olunacaqdır.

Büdcənin gəlirlər sisteminin optimallaşdırılması üçün alternativ olaraq bütün strategiyalar işlənməlidir, bu strategiyanın işlənib hazırlanması ilə büdcə gəlirlərinin artımı təmin ediləcəkdir. Bütün bunları təmin etməklə, digər bir

tərəfdən manatın sabitliyi mütləq şəkildə təmin edilməli, onun dollara olan nisbət məzənnəsi daha dayanıqlı olmalıdır. Bu sabitliyin təmin edilməsi elədə asan məsələ deyil, çünki buna təsir etməklə ölkəyə daxil olan xarici investisiyalara təsir etmiş olur. Bu da öz növbəsində real hesab olunmur.

Digər bir məsələ vergilərin sayının azaldılması, vergi dərəcisnin aşağı düçməsi və bununlada vergi ödəyicilərinin sayının artmasına nail olmaqdır. Dövlət büdcəsində kəsirin yaranması və ya balansın pozulması bir başa olaraq təkrar istehsal prosesinə təsir edir. Bu təsir isə böyük problemlərə səbəb olur. Bunlardan ən mühümü əhalinin öz iş yerlərini itirmək təhlükəsinin yaranmasına gətirib çıxarır. Beləki, tələb və təklif arasındakı mövcud tarazlıq pozulur ki, bu pozulmada məhsulların qiymət artımına gətirib çıxarır. Bütün bu problemlər ölkədəki sabitliyi gərginliyə çevirir.

### 3.3. Qeyri-neft sektorunun inkişafına büdcə gəlirlərinin yönəldilməsinin təsiri

Dövlət tərərfindən qeyri-neft sektorunun inkişafı üçün həyata keçirdiyi siyasətin digər bir istiqaməti isə qeyri-neft sferasında istehsalın səmərəliliyinin artırılması və buraa büdcə gəlirlərinin istiqamətləndirilməsi əsas vəzifə kimi qoyulmuşdur. Azərbaycanda əhalinin rifah halının yaxşılaşdırılması, mövcud müəssisələrin resurslar və vasitələrindən maksimal dərəcədə səmərəli istifadə edilməsindən, xüsusəndə səmərəliliyin nəticə etibarı ilə səviyyəsinin yüksəldilməsindən asılı olaraq dəyişir. Bütün bunları həyata keçirməklə milli iqtisadiyyatın qeyri-neft sektoru üzrə rəqabətqabiliyyətliliyinədə öz təsirini göstərmiş olur.

Hazırda ölkədə qeyri-neft sferalarında istehsalın səmərəlilik qabiliyyətinin zəifliyi, onun sahənin istehsalı, həmçinin göstərilən xidmətlərin xarici istehsaldakılardan daha aşağı saviyyəli olmasına zəmin yaradır ki, buda öz növbəsində rəqabət qabilliyyətinin aşağı düşməsinə gətirib çıxarır. Qeyd etmək lazımdır ki, ölkəmizdə mövcud olan rəqabətqabiliyyətli, iqtisadi resurslardan lazımı dərəcədə və səmərəli şəkildə istifadə olunan sferaları yaratmaq demək olar

mümkün deyil, çünki qısa zaman kəsində nail olunması mümkün deyildir,buna çox müddət lazımdır. Dövlət tərəfindən həyata keçirilən stimullaşdırıcı siyasət nəticəsində iqtisadi artımın dayanıqlılığını və davamlılığını möhkəmləndirən sferaların inkişaf etdirilməsinə dəstək verir. Dövlət tərəfindən bu sahələrdə istehsalın səmərəliliyinin yüksəldilməsi üçün qarçıya bir sıra məqsədlər qoyulmuşdur. Bu məqsədlərin reallaşdırılmasıyla nail olmaq mümkün olacaqdır. Bu məqsədlər aşağıdakı kimidir:

- Qeyri-neft sektoru üzrə ixtisaslı kadrların təmin edilməsi
- Qeyri-neft sektoru üzrə insan kapitalının formalaşdırılmasının təmin edilməsi
- Qeyri-neft sekrotu üzrə iri həcmli investisiya yatırımlarının qoyuluşunun təmin edilməsi
- Qeyri-neft sekrotu üzrə dövlət proqramlarının tərtib edilərək "insan kapitalının" ön plana çəkilməsinin təmin edilməsi
- Mövcud kadr bazaların peşəkarlıq səviyyələrinin yüksəldilməsinin təmin edilməsi
- Qeyri-neft sekrotu üzrə texnoloji və intellektual bazasının səviyyəsinin yüksəldilməsinin təmin edilməsi
- Qeyri-neft sektorunun inkişafına neft gəlirlərinin yönəldilməsinin təmin edilməsi

Azərbaycanda əmək bazarının və qeyri-neft sektorunun düzgün təhlil edilərək əlaqələndirilməsiylə bu sahələrin inkişafına nail olunacaqdır. Bu səbəbdə koordinasiyalı əlaqələndirilmə böyük bir əhəmiyyətə malik olacaqdır.

Ölkəmizdə infrastruktur sahələrinin inkişafı qeyri-neft sferasında istehsalın səmərəliliyinə təsir edən başlıca amillərdəndir. İnfrastruktur sahələrin inkişafı öz növbəsində ölkədə maliyyə, maddi və informasiya axınlarının dəyər və sürətini müəyyən etmiş olur. Ölkəmizdə bu qeyd edilən axınların dəyəri azaldıqca və sürəti yüksəldikcə, milli iqtisadiyyatın, həmçinin qeyri-neft sektoru sahələrinin rəqabətqabiliyyətliliyi artmış olur. Bu səbəbdəndə rabitənin, nəqliyyatın, anbar

təsərrüfatlarının, həmçinin infrastruktur sahələrin inkişaf səviyyəsi kənd təsərrüfatı və emal sənayesi sferalarının inkişafını müəyyən edən əsas amillərdən birinə çevrilmiş olur.

Ölkəmizdə mövcud infrastruktur sferalarının inkişaf etdirilməsi istiqamətində son illərdə həyata keçirilən işlərin hər biri qeyri-neft sferasının inkişafında özünün müsbət təsirini göstərmiş olur. Belə bir təsir formasının olması bu sahələrin xidmətlərinin çoxalması sayəsində, bundan başqa qeyri-neft sferasının başqa sahələrinin inkişafı hesabına nail olunmuş olur.

Qeyri-neft sferalarında istehsalın səmərəliliyinin yüksəldilməsinin digər forması bu sferaların vergi güzəştlərinin verilməsi, həmçinin fəaliyyətlərinin birbaşa subsidiyalaşdırılmasının təmin edilməsiylə əlaqələndirilir.

Son illər ərzində ölkəmizdə vergilərin səviyyəsi kəskin surətdə azalmışdır. Hazırki dövrdə vergi dərəcələrinin azaldılması vasitəsilə qeyri-neft sferalarının inkişafının stimullaşdırılması imkanlarını məhdudlaşdırılmış olur nisbətən aşağı müəyyənləşdirilmişdır. Digər tərəfdən mənfi təsir göstərən amil kimi ölkədə enerjidən istifadəyə görə müəəyənləçdirilmiş qiymətlərin yüksək olmasıdır. Həmçinin gələcəkdə bir neçə xidmət sahələrinin tariflərinin və əmək haqqlarının artımı proqnozlaşdırılır ki, bütün bunlar qeyri-neft sferasının məhsullarının qiymət baxımından rəqabətqabiliyyətliliyinə mənfi təsir edəcək və istehsal xərclərinin artımına gətirib çıxarmış olacaqdır.

Qeyd etmək lazımdır ki, müəssisələrin sosial-iqtisadi öhdəliklərinin artırılmasıda əsas mövqe kimi çıxış edir. Burada hər bir işçinin tibbi sığortası, onların həyatlarının sığortalanması, mövcud ekoloji tələblərin olması, iş şəraitində əməyin təhlükəsizliyi ilə bir başa əlaqəli olan tələbatların artırılması və sair olan proseslər istehsalın maya dəyərinin yüksəlməsinə zəmin yaradacaqdır. Bütün bunlar qeyri-neft sferasının istehsalının səmərəliliyini təmin edir və investisiya cəlbediciliyinin artırılmasını stimullaşdırmaq üçün mexanzim yaradılmalıdır. Bu olduqca mühüm bir bazarda səmərəliliyini artırmış olur. Bununlada bütün sferaların inkişafı təmin edilir.

Müasir sosial-iqtisadi dövrdə ölkəmizdə belə mexanizmlərin qeyri-neft

sferasının ən böyük sahəsi olan kənd təsərrüfatında tətbiq edilməkdədir. Qeyd etmək lazımdır ki, kend təsərrüfatı iqtisadiyyatı bütün vergilərdən azad edilmişdir, yalnız torpaq vergisi istisnadır. Vergilərdən azad edilməsi kənd təsərrüfatının daha da inkişafına səbəb olacaqdır. Qeyri-neft sferasının ən böyük sahəsi olaraq bura xüsusi maliyyə yardımları verilir, təsərrüfat sahiblərinə xüsusi güzəştlər göstərilir, xüsusi şərtlər ilə gübrələr, toxumların verilməsi təmin edilir.

Qeyri-neft sektorunun digər bir sahəsi ixracyönümlü və emal sənayesi təşkil edir. Beləki, bu sahələrinin inkişafı bir başa olaraq dövlət tərəfindən dəstəklənir. Uğurlu mexanizmin tətbiqi ilə daha da təkmilləşdirilməsinə nail olunur. Həmçinin, ölkənin emal sənayesinin inkişafı üçün müasir texnologiyaların tətbiq edilməsiylə yerli istehsalın texniki hissəsinin təkmilləşdirilməsi təmin edilir. Bunu təmin etmək üçündə belə müəssisələrin xərclərinin müəyyən qismi dövlət tərəfindən qarşılanır. Dövlət bu addımı atmaqla müəssisələrin səmərəliliyini təmin etmiş olur.

Qeyri-neft sferasının inkişafının stimullaşdırılmasını təmin edilməsi üçün digər bir üsul buradakı baş verən risklərlə bağlıdır. Qeyri-neft sektoru sferalarında baş verə biləcək risklərin azaldılmasını təmin edilməsi bu sahələrin stimullaşdırılmasına səbəb olacaqdır. Bütün bu qeyri-neft sferalarının inkişafını təmin etmək üçün buradakı risklərin minimuma endirilməsi vacib şərtlərdəndir. Bunu təmin etmək üçün əsas məqam dövlət dəstəyinin olmasıdır. Əgər dövlət tərəfindən tənzimlənməsəydi bunu təmin etmək ümümkün olmazdır, beləki istehsalın səmərəliliyinin yüksəldilməsi üçün şərait yaradılmış olur. Qeyri-neft sektoru üzrə risklərin sığortalanmasına nail olunmaqla buraya daha azaldılmış qiymətlərə sahib vəsaitləri cəlb etmiş oluruq.

Ölkədə qeyri-neft sferasının inkişafının təmin edilməsi üçün kompleks tədbirlərin həyata keçirilməsi zəruri hesab edilir. Son illərdə dayanıqlı və davamlı iqtisadi artımın neft gəlirləri hesabına formalaşdırılır. Neftin qiymətinin enib-qalxması burada baş verən oynamalar rəqabətqabiliyyətlililiyin və iqtisadiyyatın formalaşdırılması özüdə qeyri-neft sektoruna təsir edir.

Ümumilikdə, dövlət və özəl sektorun bütün imkanları maksimal dərəcədə səfərbər edilməlidir. Həmçinin, daxili və xarici amillərdən səmərəli istifadə

olunmalıdır. Bununla yanaşı, inkişaf prioritetlərinin qeyri-neft sferası üzrə düzgün formada müəyyən edilməsi dövlətin sosial - iqtisadi siyasətinin işlənməsinin ən mühüm məqsədlərindəndir. Qeyri-neft sektorunda perspektivli sahələr müəyyən edilərkən bu sahələrin inkişafının təmin edilməsinin müəyyən və zəruri şərtləri yüksək dəqiqliklə müəyyən edilməlidir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Azərbaycan Respublikası üzrə qeyri-neft sferasının təkminləşdirilməsi, qeyri-neft sferasının inkişaf mühitinin ölkənin iqtisadi inkişafı ilə qarşılıqlı əlaqələndirilməsi, Azərbaycanda qeyri-neft mühitinin qiymətləndirilməsinin nəzəri və praktik əsaslarının, iqtisadi inkişafın təmin olunması üçün büdcə gəlirlərinin qeyri-neft sferasına yönəldilməsi rolunun müəyyən olunması, qeyri-neft sferasının bütün sahələrinin dinamikasının, Azərbaycana yerli və xarici investisiyaların cəlb olunması və onların səmərəliliyinin təhlilinin, qeyri-neft sferasının inkişafına əngəl törədə bilən problemlərdən və onların aradan qaldırılması yollarının, iqtisadiyyatın diversifikasiyasının, ölkədə sosial-iqtisadi inkişafın təmin edilməsində xarici investisiyaların təsirliliyinin qiymətləndirilməsinin təhlilləri aparılmışdır.

Qeyri-neft sferasının inkişafına büdcə gəlirlərinin yönəldilməsinin təkminləşdirilməsi ön planda duran vacib mesələlərdəndir. Qeyri-neft sferasının inkişafına büdcə gəlirlərinin yönəldilməsinin təkminləşdirilməsi yüksək templə həyata keçirilir. Ölkəmizdə bu prosesin inkişafına xüsusi diqqət olunur. Beləliklə qeyri-neft sferasının inkişaf aspektinin yaxşılaşdırılması üçün şərait yaradılır ki, ölkəyə yerli və əcnəbi investorların investisiya yatırmaqları üçün maraqları da artmış olsun. Qeyri-neft sferasının inkişaf mühitin yaxşılaşdırılması prosesinə büdcə gəlirləri siyasəti və neft sferasına invesitisiya yatırımların artırılması daha çox təsir edən amillərdəndir.

Qeyri-neft sferasının inkişaf strategiyasının əsas üstünlükləri aşağıdakılardan ibarətdir:

- Qeyri-neft sferası üzrə investisiya fəaliyyətinin yekun nəticələrinə əsaslanaraq tam məsuliyyətliliyin təmin edilməsi
- Qeyri-neft sektoru üzrə elmi-tədqiqat, istehsalat və idarəetmə səviyyələrində dayanıqlı işgüzar əlaqələrin tənzim edilməsi
- Qeyri-neft sektoru üzrə bazarda istehlakçı naminə rəqabət, şirkətlərin hüquqları üzərində ciddi nəzarət

- Qeyri-neft sahəsi üzrə idarəetmənin müasir sisteminə söykənərək layihə dəyərinin real idarə edilməsi
- Qeyri-neft sektoru üzrə maliyyə və digər risklərin aşağı salınması hesabına fəaliyyətlərin maliyyə yekunlarının yaxşılaşdırılması.

Dövlətimiz qarşısında duran quruculuq vəzifələrinin icrası üçün qeyri-neft sektorunun inkişaf etdirilməsi proseslərinə yardım modelinin məhz aşağıdakı prinsip və qaydalar əsasında reallaşdırılmasını məqsədəmüvafiq sayırıq:

- ölkədə qeyri-neft sektorunun inkişaf fəaliyyətilə bağlı hüquqi-normativ sənədləri təkmilləşdirmək yolu ilə əlverişli investisiya mühitinin qorunması;
- yerli idarəetmə orqanları hüquqlarının genişləndirilməsi və qeyri-neft sektoru bazasının möhkəmləndirilməsi;
- xüsusi maliyyələşmə mənbələrinin axtarılması;
- sahibkarlıq, icarədarlıq, konsepsiyalaşdırma, tərəfdaşlıq və digər modellər əsasında özəl investisiyaların geniş sürətlə cəlb olunması;
- qeyri-neft sahəsinin inkişaf tsiklinin əksər mərhələlərində, hər şeydən əvvəl, sövdələşmələrin şəffaflığını təmin edən ticarət-maliyyə şəbəkəsi hesabına rəqabətin inkişafı və səmərəli rəqabət mühitinin yaradılması;
- qeyri-neft sektorunun bütün sahələrinin fəaliyyətlərində risklərin sığortası üzrə dövlət zəmanətinin təmin edilməsi.

Ölkə üzrə büdcədən gələn gəlirlərin qeyri-neft sferasının inkişaf mühitinə istiqamətlənməsi və onun formalaşması və səmərəli istifadəsində dövlətin nəzərdə tutduğu aparıcı istiqamətlər aşağıdakılardan ibarət olmalıdır:

- Neft sektorunun inkişafından əldə olunan gəlirlərin qeyri-neft sferasının inkişafına yönəldilməsinin təmin olunması
- Qeyri-neft sektoru üçün zəruri, kifayət həcmdə investisiyaların cəlb olunması və ölkə iqtisadiyyatı üçün səmərəli şəkildə istifadəsi
- Ölkə iqtisadiyyatının struktural baxımdan yenidən qurulması və innovasiya tipli inkişaf prosesinə keçməsi üçün son dərəcə vacibdir;

- qeyri-neft sənayesinə investisiya üçün potensial mənbələrin genişləndirilməsi şəraitinin formalaşdırılması
- yığımların investisiyaya çevrilməsini stimullaşdıran mühitin yaradılması;
- büdcə gəlirlərinin səmərəli şəkildə istifadəsi üçün fərqli səviyyələrdə məqsədli proqram və strategiyaların tətbiqi;
- iqtisadiyyatın prioritet və aparıcı sahələrinin bütün sferalarında rəqabət mühitinin və bərabər imkanların yaradılması;
- qeyri-neft sənayesində investisiya aktivliyinin fəallaşdırılmasına dövlət köməyinin göstərilməsi və s.

Dövlətin qeyri-neft sektoru üzrə mühiti və onun potensialının formalaşdırılması və səmərəli istifadəsində əsas vəzifələri kimi aşağıdakıları ifadə etmək olar:

- respublikanın bütün ərazilərində və inzibati vahidlərində iqtisadiyyatın prioritet sahələri müəssisələrinə maliyyə-kredit köməyinin göstərilməsini təmin eləyən zəruri və yetərli dərəcədə məqbul infrastrukturun yaradılması;
- şəraitin təmin olunması və əlverişli mühitinin yaradılması üzrə tədbirlərin fəallaşması hesabına xarici investorlar axınının gücləndirilməsi;
- qeyri-neft iqtisadiyyatının prioritet və aparıcı sahələrində investisiya layihələrinə dövlətin kömək tədbirləri üzrə diferensiallaşdırılması sisteminin hazırlanması və tədqiq olunması;
- perspektivdə qeyri-neft sahəsinə qoyulan investisiya layihələrinin reallaşması zamanı birgə investisiyalaşdırmasının yeni formalarının axtarışı;
- iqtisadiyyatın aparıcı sahələrinin məhsullarına tələbin artdığı bir şəraitin formalaşdırılması;
- iqtisadiyyatın prioritet sahələrinin inkişafına fərqli mənbələrdən yönəldilmiş investisiya, maddi və intellektual mənbələrin təmərküzləşdirilməsi və onlardan səmərəli istifadənin təmin olunması.

Dövlətin başlıca məqsədi qeyri-neft sektorunun hərtərəfli inkişafını təmin etməkdir. Ölkəmizin müəssisələrinin investisiya cəlbediciliyinin təmin edilməsi də

bu sıradadır. Qeyri-neft sferasının inkişafının maliyyələşdirilmə sistemi büdcə gəlirlərinin maliyyələ mənbələri və investisiyalaşma metodlarının bütöv, üzvi vəhdəti sayəsində formalaşır.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Ağazadə M. "Azərbaycanda büdcə-vergi siyasətinin müasir vəziyyətinin təhlili və onun təkmilləşdirilməsi istiqamətləri" Vergi jurnalı məqalə, Bakı 2011
2. Aslanlı K., Z. İsmayıl, Ağayev R., Mehtiyev A.. İqtisadiyyatın və ixracın diversifikasiyalaşmasının qiymətləndirilməsi. Gəlirləri İzləmə İnstitutunun (ABŞ) dəstəyi. Azad İqtisadiyyata Yardım İB. Bakı, 2013
3. Allahverdiyev H., Məmmədov Z. İnvestisiya proseslərinin tənzimlənməsi (dərslik) Bakı, 2003.
4. Alahverdiyev H., Qafarov K., Əhmədov Ə. "Milli iqtisadiyyatın dövlət tənzimlənməsi" Bakı – 2007
5. Azərbaycan Respublikasının Konstitusiyası
6. Azərbaycan Respublikasının vergi məcəlləsi. Bakı 2011
7. Azərbaycanın statistik göstəriciləri -2014 Bakı, Səda, 2014, s447-
8. Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası. Azərbaycan Republikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir
9. Azərbaycan Respublikasında sənaye inkişafı ilə bağlı 2015-2020-ci illər üçün Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli Sərəncamı ilə təsdiqlənmişdir.
10. Azərbaycan Respublikasının 2014-cü il və gələn üç ilə olan iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri. Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi. Bakı, 2013
11. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2016-cı il 16 mart tarixli "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üçün strateji yol xəritəsinin əsas istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" sərəncamı
12. Bədəlov Ş.Ş., Məhərrəmov R.B., Qurbanov F.Ə. " Büdcə sistemi " Bakı 2003
13. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının qanunu – 2002

14. Bərxudarov Mənsur və Məmmədov Nüsrəddin, İqtisadiyyatın təhlükəsizliyi, Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2006, 302 s
15. Əhmədov M.A. Qloballaşma və milli iqtisadiyyatın formalaşması. Bakı, Azərnəşr, 2003. 15."Əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı (2008—2015-ci illər üzrə)" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 25 avqust tarixli,3004 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir
16. Ələkbərov Ə.Ə. Sosial-iqtisadi inkişafın maliyyə-büdcə parametrlərinin tənzimlənməsi (Monoqrafiya). Bakı, "Elm", 2007.
17. Milli iqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları, Bakı 2006 səh 44-56
18. Novruzov N.A., Hüseynov X.Ə. "Maliyyə" Bakı 2007
19. Nadirov A.A. Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri, Bakı: "Elm", 2001.
20. Kərimli İ.A., Dünya iqtisadiyyatı: beynəlxalq ticarət, maliyyə və inkişaf, Bakı: "CBS", 2006, 166 s
21. Kəlbiyev Y. "Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi problemləri".Dərslik. Bakı 2005.
22. Hüseynov T.H. Azərbaycanda investisiyalar (gəlirlər,investisiyalar, sənayeləşdirmə, məşğulluq) Bakı, 2009.
23. Zeynal F. D. İnvestisiyalar və Azerbaycanda onların mövcud durumu Bakı: Elm, 2001.

1. Бланк И.Т. Управление инвестициями предприятии. "Ника - Центр", 2003, 275 с.
2. Надиров А.А. «Размышления над концепцией экономического развития», Известия АН Азербайджана», серия экономики, 1992, №3-4
3. Полтерович В., Попов В., Тонис А. Экономическая политика, качество институтов и механизмы "ресурсного проклятия" // Вопросы экономики, 2007, № 6, с. 4-27.

4. Портер М.. Международная конкуренция. Конкурентные премушества стран. М.: Международные отношения, 1993.
5. Самуэльсон П., Нордхаус В., Экономика. М., БИНОМ, 1997. 20. Ю.В.Шараев. Теория экономического роста. Москва Издательский дом ГУ ВШЭ, 2006.

1. Doingbusiness,World Bank World Development Report
2. Jon Wakeman-Linn, P.Mathieu, Bret V.Selm - Oil Funds and Revenue management in transition economies: The case of Azerbaijan and Kazakhstan. IMF, 2003.

**İnternet Resursları**

1. www.stat.gov.az
2. www.taxes.gov.az
3. www.maliyye.gov.az

## Cədvəllərin siyahısı

**Cədvəl 1.** Dövlət büdcəsinin gəlirlərinin göstəriciləri (ümumi gəlirlərdə xüsusi çəki faizlə) 18

**Cədvəl 2**. Azərbaycan Respublikasının Dövlət büdcəsinin gəlirlərinin icrasının tərkibi(mln.manat) 20

**Cədvəln 3**. Azərbaycan Respublikasının 2012-2016-cı illər ərzində dövlət büdcəsinin gəlirləri və xərcləri 24

**Cədvəl 4**. Azərbaycan Respublikasının 2010-2015-ci illər ərzində dövlət büdcəsinin gəlirlərinin strukturu (mln. AZN) 26

**Cədvəl 5**. İnvestisiya prosesinin tərkib hissələri 40

**Cədvəl 6**. İnvestisiya potensialının sahələr üzrə qiymətləndirilməsi 42

## Şəkillərin siyahısı

**Şəkil 1.** Gəlirlər 27

**Şəkil 2.** Azərbaycanın inkişaf modelinin strateji istiqamətləri 29

**Şəkil 3.** Global competetivenes index 44

**Şəkil 4.** Rəqabətqabiliyyətlilik səviyyəsinin xarakteristikası 50

**Şəkil 5.** Daxili bazarın ölçüsü 2016-2017-ci illər 53

**Şəkil 6.** Makroiqtisadi sabitlik 2016-2017-ci illər 53

**Şəkil 7.** İnfrastruktur 2016-2017-ci illər 54